UNİKAL

№18 (2248) 16 may 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Azərbaycanın sülh tələbləri Ermənistanı dalana dirəyib



Səh.9

## Sovet bayrağı qaldıran, "Georgi lenti" taxan oliqarxın gizlinləri

*Azərbaycanda bir sıra sabiq vəzifəli şəxslərin ruspərəstliyi ilə bağlı bir müddət öncə cəmiyyətdə və mediada ciddi müzakirələr başlamışdı; Ramiz Mehdiyev, Elmar Məmmədyarov, Əbülfəs Qarayevin adları da həmin şəxslərin arasında idi, hərçənd onlardan bəziləri bunu təkzib edən açıqlamalarla çıxış etdilər. Lakin reallıq ondan ibarətdir ki, ölkədə müəyyən məmurlar da daxil olmaqla, bir çoxlarının Azərbaycana və dünyaya "Rusiya pəncərəsindən" baxdığına dair ictimai rəydə güclü qənaət hakimdir. Bu həftə gündəmə bomba kimi düşən və böyük ajiotaj yaradan hadisəyə də elə yuxarıda yazdıqlarımız kontekstində yanaşmaq lazımdır. Söhbət İmişlidə 9 may tədbirləri zamanı SSRİ bayrağı qaldırılmasından və tədbir iştirakçılarının yaxalarına "Georgi lenti" taxmasından gedir. Belə bir anormal addımın təşəbbüskarı və aparıcı fiquru isə rayon Ağsaqqallar Şurasının sədri (13.05.2025 tarixində...*

Səh.6

## "Ali məktəblərə qəbulda keçid ballarında artım olacaq"



*Təhsil eksperti Kamran Əsədov "Unikal"a müsahibə verib. O, "Son zəng"ə görə pul tələb edən məktəb direktorunun işdən çıxarılmasından, "Son zəng" tədbirlərinin dəbdəbəli keçirilməsindən, direktorların seçiminin necə aparılmalı olduğundan və bu il ali məktəblərə qəbul imtahanları üzrə keçid ballarının necə...*

Səh.4

## Əbülfəs Qarayev Rusiyadakı biznesini böyüdür



*Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin Rusiyada fəaliyyət göstərən şirkəti ötən il 146 milyon 636 min rubl (1 milyon 585 min dollar) gəlir əldə edib... Xatırladaq ki, Əbülfəs Qarayev 2023-cü ilin may ayında Rusiyada "Korporasiya ÇE" (OOO "Korporaüiə ÇE" - İNN: 7725322819) adlı şirkətin 50 faizlik payını...*

Səh.5

## "Dövlət əleyhinə çağırışlar etməyimə peşmanam"



*Dövlət əleyhinə çağırışlarda təqsirləndirilərək saxlanılan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Qaradağ rayon şöbəsinin sədri Zaur Əsgərov və Binəqədi şöbəsinin üzvü Gündüz Mirzəyevin cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib. "Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmənin...*

Səh.3

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:56 PM Page 2



# Finala keçə bilməyən təmsilçilərimizdən "Avroviziya" açıqlaması



***Xəbər verdiyimiz kimi, Azərbaycanı "Avroviziya" mahnı müsabiqəsində təmsil edən "Mamagama" qrupu finala keçə bilməyib.***

Qrup sosial media hesabında yarışma ilə bağlı paylaşım edib: "Əziz dostlar, hər saniyə yarımfinal çıxışımıza olan dəstək və sevgi dolu mesajlar gəlir. Bu yolu sizinlə birgə keçdiyimiz və sizi sevindirə bildiyimiz üçün sonsuz xoşbəxtik. Hansı ki, bu bizim üçün ən vacib olanıdır. Finala keçəcəyimizi gözləyənlərdən üzr istəyirik və sizdən rica edirik ki, məyus olmayasınız. Biz əlimizdən gələni etdik, səhnədə tam səmimi olduq və bütün emosiyalarımızı verdik.

Bizə azarkeşlik edən və canlı yayımla bizi izləyən hər kəsə sonsuz təşəkkür edirik. Sizin dəstəyinizi və sevincinizi hiss etdik. Ölkəmizdə hələ çox istedadlı ifaçılar var və biz onlara gələcək müsabiqələrdə uğurlar arzulayırıq. Əsas odur ki, biz sübut etdik ki, Azərbaycanda yaxşı musiqi yaradılır və hər zaman yaradılıb.

Dostlarımıza, yaxınlarımıza və İTV komandamıza dərin təşəkkür edirik. Siz bizə inandınız və böyük iş gördünüz. Bunu heç vaxt unutmayacağıq.

Ruhdan düşmürük və bu bizim üçün böyük motivasiyadır, irəliləməyə davam edəcəyik. Hazır materiallarımız çoxdur və sizinlə paylaşmaq üçün səbirsizlənirik".

Qeyd edək ki, bu il ölkəmizi yarışmada "Mamagama" qrupu "Run with you" mahnısı ilə təmsil edib. Onlar yarışmanın finalına vəsiqə qazana bilməyiblər.

2023-cü ildə ölkəmizi təmsil edən Turan və Tural qardaşları, 2024-cü ildə İlkin Dövlətov və Fahree də finala vəsiqə qazana bilməmişdilər.

Yarışmanın ikinci yarımfinalı mayın 15-də, final isə 17-də keçiriləcək.

# Arif Babayevə Prezident mükafatı təqdim edildi



***Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyevin 8 may 2025-ci il tarixli Sərəncamı ilə görkəmli muğam ustadı, pedaqoq, Xalq artisti Arif Babayev Heydər Əliyev Mükafatına layiq görülüb.***

"Unikal"ın məlumatına görə, sənətkar Azərbaycan mədəniyyətinin inkişafında xüsusi xidmətlərinə görə bu ali mükafatla təltif olunub. Mayın 14-də Prezident Administrasiyası Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva mükafatı Xalq artisti Arif Babayevin evində sənətkara təqdim edib.

Fərəh Əliyeva Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın salamlarını və təbriklərini ustad xanəndəyə çatdırıb.

Arif Babayev Ümummilli lider Heydər Əliyevin mədəniyyətimizin, o cümlədən muğam sənətinin inkişafını daim diqqətdə saxladığını, qayğı göstərdiyini vurğulayıb. O, Ulu öndərin adını daşıyan bu ali mükafata layiq görülməsini həm də muğam sənətinə verilən yüksək qiymət kimi səciyyələndirib, Prezident İlham Əliyevə dərin təşəkkürünü bildirib.

Sənətkar bu günlərdə doğma yurdu Ağdamda Muğam Mərkəzinin istifadəyə verilməsini böyük sevinc və qürur hissi ilə qarşıladığını deyib:

"Ağdam Muğam Mərkəzinin açılış mərasimini televiziyadan izləyirdim. Konsertdə, xüsusilə, "Qarabağ şikəstəsi"nin ifası zamanı göz yaşımı saxlaya bilmədim. Var olsun möhtərəm Prezidentimiz, Qarabağımızı bizə qovuşdurdu. İndi mədəniyyətimiz, muğamımız da o torpaqlara qaytarılır. İnanıram ki, Azərbaycan muğamı Qarabağda yenidən canlanacaq. Ağdamdakı Muğam Mərkəzi bu sahədə böyük rol oynayacaq.

Qarabağımızda mədəniyyəti belə sürətlə dirçəltdiyinə görə möhtərəm Prezident İlham Əliyevə, muğamımızın dünya şöhrəti qazanmasına davamlı dəstək verən Heydər Əliyev Fonduna və onun rəhbəri, əzizimiz Mehriban xanıma dərin minnətdarlığımı bildirirəm".



# Müğənni Dəniz Əsədova həbs edildi

***Məhkəmə müğənni Dəniz Əsədova barədə həbs qərarı verib.***

"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Binəqədi Rayon Məhkəməsi bu barədə hökm çıxarıb.

D.Əsədova vəkil Asim Abbasovun xüsusi ittiham qaydasında şikayəti əsasında 7 ay azadlıqdan məhrum edilib.

Dəniz Əsədova öz instaqram səhifəsində dəfələrlə vəkil Asim Abbasovu təhqir edib, onun fotolarını icazəsiz paylaşıb. Bu səbəbdən vəkil xüsusi ittiham qaydasında məhkəməyə müraciət edib, müğənninin təhqir və böhtan cinayətlərində təqsirli bilinərək ən ağır formada cəzalandırılmasını istəyib.

Xatırladaq ki, D.Əsədova bundan əvvəl də eyni ittihamla müxtəlif şəxslər-müğənni Cabbar Musayev və digərləri tərəfindən məhkəməyə verilmişdi. Bundan başqa, müğənninin şikayəti əsasında 2023-cü ildə Sabunçu rayonu 21 saylı Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Rauf İsfəndiyarov həbs edilib. Həkim ifaçıya qarşı 627 min manatlıq dələduzluqda ittiham olunub, daha sonra ev dustaqlığına buraxılıb.

# "Çox əziyyət çəkdim" - Mətanət İsgəndərlinin qızı

***"Mətanət İsgəndərli ana olaraq çox fədakardır. Onun mahnıları ilə böyümüşəm. Başqa bir ölkəyə köçəndən sonra isə onun mahnılarını kəşf etdim: "Əlvida", "Gecədən sübhədək". Onun hər bir mahnısı mənim üçün başqadır. Mənim anam böyük sənətkardır. Azərbaycanın Mətanət İsgəndərlisi və mahnıları hər zaman yaşayacaq".***



"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Mətanət İsgəndərlinin qızı Ülkər deyib. Türkiyədə yaşayan Ülkər anasının konsertinə görə Bakıya gəlib. O, Antalyadakı həyatından, ailəsindən danışıb: "Həyat yoldaşım gəlməyib. Övladlarım isə balacadır və evdədirlər. İkinci oğlum olub: Enginhan. Qızımın adı isə Tuanadır. Başqa ölkədə yaşamaq asan deyil, çətindir. Amma deməli, qismət belədir. Anam tez-tez gəlir yanıma. Öyrəşənə qədər çox əziyyət çəkdim. Orada ev xanımam, uşaqlarım hələ balacadır".

Qeyd edək ki, M.İsgəndərlinin Kərim adlı oğlu, Ülkər adlı qız övladı var. Ülkər türk vətəndaşı ilə ailəlidir. (Axşam.az)

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:56 PM Page 3



# Vasif Talıbova məxsus şirkətlər ləğv edilir



***Naxçıvan Muxtar Respublikasında bir zamanlar aktiv fəaliyyət göstərmiş "Gəmiqaya Avtonəqliyyat", "Avtonax MR" və "Avto GL" şirkətləri ləğv edilir.***

"Unikal" bu barədə "iqtisadiyyat.az"a istinadən xəbər verir.

Məlumata görə, ləğv olunduğunu elan edən şirkətlər kreditorlarına müraciət ünvanlayıb ki, iki ay ərzində tələblərini Naxçıvan şəhəri, Cəli?l Məmmədquluzadə küçəsi, ev 34/2 ünvanına bildirə bilərlər.

Xatırladaq ki, "Gəmiqaya Avtonəqliyyat" 2022-ci ildə yaradılıb, nizamnamə kapitalı 1 210 050,14 manatdır. "Avtonax MR" 2023-cü ildə 14 142.26 manat nizamnamə kapitalı ilə, "Avto GL" isə 2023-cü ildə 241937 manat nizamnamə kapitalı ilə yaradılıb.

Şirkətlər bir zamanlar Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin keçmiş sədri Vasif Talıbova məxsus olduğu bildirilən "Gəmiqaya Holdinq"in tabeçiliyində olub.

# Xarici nümayəndələr Fəxri və Şəhidlər xiyabanlarında



***18-ci Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisində (Caspian Agro 2025) iştirak etmək məqsədilə Azərbaycanda səfərdə olan Pakistanın Dövlət naziri Bilal Azhar Kayani, Latviyanın kənd təsərrüfatı naziri Armands Krauze, Somalinin kənd təsərrüfatı və suvarma naziri Mohamed Abdi Hayirin rəhbərlik etdiyi yüksəksəviyyəli rəsmilərdən ibarət nümayəndə heyətləri Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin xatirəsini yad edib, məzarı önünə gül dəstələri qoyublar.***

"Unikal" xəbər verir ki, daha sonra görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi ehtiramla anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Nümayəndə heyətləri, həmçinin Şəhidlər xiyabanında Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları önünə güllər düzüblər.

Səfər çərçivəsində nümayəndə heyətləri Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə gül dəstələri düzüblər.

Qonaqlara Zəfər parkı barədə ətraflı məlumat verilib.

Ziyarətlər zamanı nümayəndə heyətlərini Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyi və digər rəsmi şəxslər müşayiət ediblər.

# Əhalinin sayı açıqlandı

***2025-ci ilin yanvar-mart aylarında əhalinin sayı 8253 nəfər və ya 0,1 faiz artaraq 2025-ci il aprel ayının 1-i vəziyyətinə 10233142 nəfərə çatıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsinin aylıq hesabatında qeyd olunub.

# Azərbaycanda ölüm sayı azalıb

***Bu ilin yanvar-mart aylarında 14 mindən çox ölüm qeydə alınıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, 2025-ci ilin yanvar-mart aylarında ölkədə 14 min 172 ölüm halı qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,2-dən 5,6-ya düşüb.

# Sabiq deputatların biznesmen övladları

## Kəlağayı satışından plastik oturacaqlara, zibil konteynerlərindən tikinti və sanatoriyalara... - Kim nə ilə məşğuldur?

***"Unikal" qəzeti Azərbaycanın bəzi keçmiş millət vəkillərinin biznesmen övladları barədə maraqlı məlumatları təqdim edir.***

Milli Məclisin sabiq deputatı Asəf Hacıyevin qızı Mənzər Hacıyeva kəlağayı biznesi ilə məşğuldur. 1986-cı ildə anadan olan M.Hacıyeva Nyu-York Universitetini bitirib və ixtisas təhsilini Parsons Dizayn İnstitutunda davam etdirib. O, "Menzer Hajiyeva" kəlağayı brendinin dizayneridir və fransalı iş adamı Saşa Sebbaxla ailə həyatı qurub.

Bu günlərdə Azərbaycan Mərkəzi Bankı Mənzər Hacıyeva (VÖEN - 1701418472) ilə satınalma müqaviləsi imzalayıb. Müqavilə tender müsabiqəsi keçirilmədən, bir mənbədən satınalma metodu əsasında imzalanıb.

Satınalma milli kəlağayıların satın alınması ilə bağlıdır. Mərkəzi Bank kəlağayılar üçün Mənzər Hacıyevaya 1150 manat ödəyəcək.

Qeyd edək ki, Mərkəzi Bankın Mənzər Hacıyevadan neçə ədəd kəlağayı alacağı açıqlanmayıb.

Hazırda 73 yaşı olan A.Hacıyev 1996-2014-cü illərdə deputat seçilib.

Sabiq millət vəkillərindən Mahir Aslanovun oğlu Məhəmmədəli Aslanov bir müddət bank sektorunda yüksək vəzifələr tutsa da, hazırda biznes fəaliyyəti ilə məşğuldur. Müxtəlif profilli şirkətlərə rəhbərlik edən deputat oğlunun nəzarətində mebel dükanları, otel və sağlamlıq mərkəzi var.

Milli Məclisin IV və V çağırış deputatı olmuş M.Aslanovun yuxarıda adı çəkilən oğlunun vaxtilə "Bank of Azerbaijan"ın (2016-cı ildə ləğv olunub - red.) rəhbərliyinə gətirilməsi ilə bağlı məlumat yayılmışdı. Həmin banka daha əvvəl "Hafka" ləqəbli iş adamı Hafiz Məmmədov rəhbərlik etmişdi. "Hafka" Mahir Aslanovun oğlu ilə əvəzləndikdə bunu "təsadüf" hesab etməyənlər də az olmamışdı. Məsələn, o zamanlar Mia.az saytı yazırdı ki, "Mahir Aslanovun kürəkəni də həmin bankda pay sahibidir". Maraqlıdır ki, sabiq deputatın oğlu "Bank of Azerbaijan"ın rəhbərliyinə gətirildikdən bir müddət sonra bu bank bağlandı.

Başqa bir sabiq deputat, 2019-cu ildə vəfat edən Yevda Abramovun oğlu Elçin Abramov "Agro Trade Com" şirkətinin sahibi kimi tanınır. Bu şirkət plastik masa, plastik oturacaq, zibil konteynerləri (zibil yeşikləri), plastik yeşiklər və s. məhsulların istehsalı ilə məşğuldur.

2022-ci ildə E.Abramov və şirkətinin məhkəməyə verildiyi barədə xəbər yayılmışdı. Həmin vaxt "Qafqazinfo"nun əldə etdiyi məlumatda deyilirdi ki, onun banka külli miqdarda kredit borcu var. Belə ki, E.Abramov banka yaranan 117 918 manat borcunu ödəməyib. Buna görə də "Paşa Bank" Bakı Kommersiya Məhkəməsində iddia qaldırıb.

Qeyd edək ki, Y.Abramov 14 il Milli Məclisdə deputat olub. 53 saylı Quba-Qusar dairəsi üzrə 2005-2019-cu illərdə parlamentə seçilib.




Keçmiş millət vəkillərindən Dünyamalı Məmmədovun oğlu Elvin Məmmədov "Happy Baku" MMC adlı şirkətin direktoru olub. Bu şirkət Azərbaycan informasiya texnologiyaları sahəsində geniş spektr innovativ həllər təklif edən qabaqcıl şirkətlərdən biri kimi təqdim edilib. Lakin 2019-cu ildə eks-deputatın oğlunun adı ətrafında böyük qalmaqal baş verib - E.Məmmədovun iki şəxsdən birgə biznes qurmaq adı ilə pul aldığı açıqlanıb. O, Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq; külli miqdarda törədildikdə) və 179.3.2-ci (mənimsəmə; külli miqdarda törədildikdə) maddələri ilə ittiham edilib.

Xatırladaq ki, Dünyamalı Məmmədov 1995-ci ildə 95 saylı Cəlilabad seçki dairəsindən deputat seçilib. Hazırda 73 yaşı olan D.Məmmədov təqaüddədir. Onun cinayət məsuliyyətinə cəlb edilən oğlu E.Məmmədovun isə hazırda harada və nə işlə məşğul olduğu bəlli deyil.

Sabiq deputat, oliqarx Əsabil Qasımovun oğlu Taleh Qasımov isə atasının nəhəng biznesinin önəmli bir hissəsinin idarəçiliyi ilə məşğuldur. Bu günlərdə Azərbaycanın ən böyük arqroholdinqlərindən sayılan və Qasımova məxsus olan "Karat Holding" MMC-nin direktoru və qanuni təmsilçisi dəyişib. "İqtisadiyyat.az"ın məlumatına görə, Umudov İqdam Əliş oğlu MMC-nin direktoru və qanuni təmsilçisi vəzifəsindən azad olunub. Onun yerinə Xəlilov İlham Şəmil oğlu təyin edilib.

Xatırladaq ki, "Karat Holding" 2004-cü ilin martın 14-də qeydiyyata alınıb. Nizamnamə kapitalı 430 manat olan, özündə qida, aqro, sənaye, tikinti, turizm sahələrini birləşdirən holdinq daha çox un istehsalı ilə tanınır. Şirkətin hüquqi ünvanı Yasamal rayonu, Murtuza Muxtarov küçəsi, ev 201-də yerləşir. "Karat Holding"in mütəmadi olaraq mətbuatda Milli Məclisin keçmiş üzvü, 5-ci çağırış deputat Əsabil Qarakişi oğlu Qasımova məxsus olduğu barədə təkzib edilməyən məlumatlar dərc olunub.

Uzun illər holdinqdə direktor vəzifəsi tutan İ.Umudovun isə sabiq deputatın qaynı olduğu bildirilir. Holdinqə rəhbərliyi isə hazırda keçmiş deputatın özü kimi iş adamı olan oğlu Taleh Qasımov həyata keçirir.

Bundan başqa, Taleh Qasımov "Sanatoriy İstoçnik Kislovodsk" MMC-nin təsisçilərindən biridir. MMC 30 mart 2017-ci ildən fəaliyyətdədir. Hüquqi ünvanı Kislovodsk şəhəri, Pobeda prospekti 20 ünvanında yerləşir. Taleh Qasımov həm də 2019-cu ildə təsis edilən "Azərbaycan Taxıl İstehsalçıları və Emalçıları Assosiasiyası" İctimai Birliyinin İdarə Heyətinin sədri seçilib.

***Sənan Mirzə***

# Azərbaycanın sülh gündəmindəki tələbləri Ermənistanı dalana dirəyib

***Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın Lüksemburqda keçirilən Avropa Şurası Xarici İşlər Nazirləri Komitəsinin 134-cü sessiyasında verdiyi açıqlama yenidən gündəmə gəlib. Nazir bildirib ki, İrəvan Bakı ilə sülh sazişini dərhal imzalamağa və ratifikasiya etməyə hazırdır.***

Bu cür iddialı bəyanat ilk baxışdan regionda gərginliyin aradan qalxacağına dair ümidlər doğurur. Lakin Ermənistanın son illərdəki davranışları və siyasi mövqeyi bu optimizmi kölgə altına alır.

Reallıq ondan ibarətdir ki, Ermənistan cəmiyyəti və siyasi elitası hələ də revanşist düşüncələrin təsiri altındadır. Bu isə, qarşılıqlı etimadın formalaşmaları. Hələlik isə, Ermənistanda Rusiyameyilli qüvvələrlə Qərbə inteqrasiya tərəfdarları arasında rəqabət qızışır. Lakin Rusiyanın Ermənistandakı siyasi təsir rıçaqları zəifləyib, Moskva Paşinyana müxalif qüvvələrin mərkəzləşdirilməsini və onun böyük elektorat qazanmasını təşkil edə bilmir. Üstəlik, Rusiya ilə yanaşı, Robert Koçaryan və Serj Sarkisyanı Qərb də gizli dəstəkləyir.

Nikol Paşinyanın necə devrilməsi ilə bağlı Koçaryanla Sarkisyan arasında böyüyən fikir ayrılıqları məncə daha çox Rusiya-Qərb mübarizəsinin əlamətləri ilə əlaqədardır. Üstəlik, Nikol Paşinyanın Koçaryan-Sarkisyan mümkün müttəfiqliyi ilə devrilməsi ehtimalları yoxdur, çünki erməni ictimaiyyətində həmin iki keçmiş prezidentə dərin bir nifrət var. Burada digər keçmiş prezident Levon Ter-Petrosyanın da elektorat cəhətdən ciddi problemləri var. Buna görə də, Paşinyanın hakimiyyətdən getməsi sabiqlərə ediləcək yatırımlar hesabına baş tutmayacaq. Ehtimal ki, belə bir variant varsa, yeni kadr elə Ermənistan hakimiyyətinin öz daxilində hazırlanır. Ancaq Paşinyanın iqtidardan uzaqlaşdırılması ehtimalları zəif olaraq qalmaqdadır. Səbəblərindən asılı olmayaraq, siyasi qüvvələr nisbətində Rusiyanın Qərbə uduzduğu görünməkdədir. Lakin Moskvanın Ermənistanda hərbi və iqtisadi portfeli doludur ki, bu da İrəvana təzyiq aləti kimi tətbiq olunur".



sı üçün ən böyük təhlükə hesab olunur. Azərbaycanın əsas tələblərindən biri Ermənistan konstitusiyasında ərazi iddialarını ehtiva edən müddəaların aradan qaldırılmasıdır. Lakin Ermənistan bu istiqamətdə heç bir real dəyişiklik etmir. Sülhə hazır olduğunu iddia edən bir ölkənin, qarşı tərəfin suverenliyini tanımaması ciddi suallar doğurur.

Son günlər Ermənistanda siyasi elitada da hakimiyyətə qarşı təpkilər artmağa başlayır. Hətta baş nazir Nikol Paşinyanın devrilməsi kimi məsələlər də siyasi kluarlarda müzakirə olunmaqdadır.

Məsələylə bağlı fikirlərini bizimlə bölüşən siyasi şərhçi Aqşin Kərimov hesab edir ki, Ermənistanın baş naziri Nikol Paşinyanın küçə hərəkatları ilə devrilməsi ehtimalları indi üçün real görünmür. Onun fikrincə, belə bir ehtimal varsa, bu məsələ daha çox Qərblə Nikol Paşinyan münasibətlərinin dinamikası ilə izah olunmalıdır: "Çünki Nikol Paşinyan Qərbin ona qoyduğu tələb və şərtlər əsasında siyasət yürüdə bilmir. Ermənistan artıq Azərbaycanın sülh gündəmindəki tələblərin əsirinə çevrilib ki, bu da regionda Azərbaycan-Türkiyə strateji ittifaqının dinamikasını gücləndirir. Nikol Paşinyanın sülh gündəliyindəki mövqeyi isə Rusiyanın maraqları ilə dərin ziddiyyət təşkil etmir. Bununla belə, Rusiya üçün də Paşinyana yanaşmada ehtiyatlılıq dərəcələri qalmaqdadır. Deməli, nəticə olaraq, Paşinyanın devrilməsi son nəticədə Rusiya-Qərb sövdələşməsi ilə müəyyənləşə bi-

Politoloq Zərdüşt Əlizadə isə Ermənistandakı revanşist iddiaların əsasının olmadığını və hər hansı bir ciddi addımlar atmaq üçün gücə sahib olmadıqlarını deyib. Onun qənaətincə, hazırda Ermənistanın Azərbaycanla müharibə aparmağa gücü yoxdur: "Amma Azərbaycanın Ermənistana hücum etmək üçün gücü, qüdrəti var. 2 milyon əhalisi olan, iqtisadiyyatı zəifləmiş və müttəfiqi olmayan Ermənistan revanş götürə bilməz. Ermənistanın gücümü var revanşa hazırlaşsın?! Ermənilər itin günündə yaşayırlar. Ermənistan mənəvi və ruhi böhran içindədir. Ölkə bərbad vəziyyətdədir. Ordularını ilahiləşdirmişdilər. MDB məkanının ən qüdrətli ordusu adlandırırdılar, lakin orduları, generalları "lax çıxdı". Qarabağ onların milli ideologiyasının təməl daşı idi. O daş laxladı, yoxdur. Ermənistan məğlub xalqdır. Ermənistan orudusunda revanşa taqət qalmayıb. Ordusuna 20-30 dənə top alıb, bu, hər şey demək deyil axı. Paşinyan hakimiyyətdə qalmaq istəyir. Baş nazir vəzifəsi yağlı vəzifədir. Kef içində yaşayır. Əvvəllər adı "it dəftəri"ndə belə yox idi, lakin indi Ermənistanın baş naziridir. Paşinyan ordusuna silah almasa, müxalifət onu devirər. Müxalifətin ağzını mumlamaq üçün gedib Fransa və Hindistandan top alır. Ermənistan çıxılmaz vəziyyətdədir".

Digər maraqlı məqam odur ki, Ermənistan Rusiya silahlarını almaqdan imtina edərək əvəzində Hindistan və Fransadan silah almağa başlayıb. İrəvan Rusiya ilə sonuncu müdafiə sazişini 2021-ci ildə bağlayıb. Saziş hələ də tam icra olunmayıb. Halbuki 2022-2023-cü illərdə Ermənistan Hindistanla 1,5 milyard dollardan çox, Fransa ilə isə 250 milyon dollarlıq müdafiə müqavilələri imzalayıb. Bu müddət ərzində Ermənistan Hindistandan 214 mm-lik "Pinaka" reaktiv yaylım atəş sistemləri, 155 mm-lik ATAGS artilleriya sistemləri, ZADS antidron sistemləri, "Akaş-1S" hava hücumundan müdafiə sistemləri, həmçinin "Konkurs" tank əleyhinə raket kompleksləri alıb. Eyni zamanda Ermənistan Fransadan 3 "GroundMaster 200" radarı, "Mistral 3" portativ zenit-raket kompleksi və SEZAR özüyeriyən artilleriya qurğusu sifariş edib.

Mövzu ilə bağlı Bakıvaxtı.az-a danışan politoloq Samir Hümbətov bildirib ki, Ermənistanın Rusiyadan silah almaqdan imtina etməsinin bir neçə səbəbi ola bilər: "Birincisi, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanın Baş naziri Nikol Paşinyan açıqlama verdi ki, Ermənistan Rusiyaya pulunu ödəsə də, Moskvadan silahlarını ala bilmir. İkincisi, Paşinyanın Rusiya istehsalı silahlara çox da güvənməməsi ola bilər. Paşinyan bunu Ermənistanın İkinci Qarabağ müharibəsində məğlubiyyətinin səbəbi kimi görə bilər. Üçüncüsü, Ermənistan Hindistan və Fransadan daha əlavə şərtlərlə silah ala biləcəyini düşünə bilər. Ermənistanın qarşıdakı dövrdə Hindistandan "Pinaka", ATAGS və "Akaş-1S" əlavə, yeni silahlar alacağı da gözlənilir. Baxmayaraq ki, İkinci Qarabağ savaşından əvvəlki dövrlərdə Rusiya Ermənistana ödənişsiz, pay silahlar da verib".

***Seymur Əli***



## "Ermənistan ordusu beş nəfərdən ibarət ailəni vəhşicəsinə qətlə yetirdi" - Zərərçəkmiş

***Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində ifadə verən zərərçəkmiş şəxs Kərim Novruzov Ermənistan ordusunun 1991-ci ilin sentyabr-oktyabr aylarında Ağdərə rayonunun Baş Güneypəyə kəndinə dörd dəfə hücum etdiyini, nəticədə İkinci Dünya müharibəsi iştirakçısı 1910-cu il təvəllüdlü Qoşun Abdullayevi, Həmzə Ələkbərovu və kəndin digər sakinlərini qətlə yetirdiyini deyib.***

"Unikal"ın xəbərinə görə, o bildirib ki, Ermənistan ordusunun sonuncu irimiqyaslı hücumları 1992-ci il martın 12-də baş verib. "Ağdərə rayonunun beş kəndinə, o cümlədən bizim Baş Güneypəyə kəndinə hücum etdilər. Onlar bütün kəndi mühasirəyə alıb, tanklardan və ağır artilleriyadan atəş açırdılar. Kifayət qədər hərbi qüvvələri var idi. Onlar avtomatlar, pulemyotlar, snayper tüfəngləri ilə silahlanmışdı. Atam 1992-ci ilin martın 12-də dinc sakinləri qətliamından xilas edərkən döyüş yoldaşları ilə birlikdə qəhrəmancasına şəhid oldu. Atamdan əlavə, qardaşım, iki əmim və digər qohumlarım və uşaqlıq dostum həmin döyüşdə şəhid oldular. Vitali Balasanyanın vasitəçiliyi ilə danışıqlar aparılsa da, lakin onlar atamın və onunla birlikdə həlak olanların nəşinin verilməsindən imtina etdilər. Hazırda da onların nəşlərinin harada olduğu məlum deyil", - deyə K.Novruzov bildirib.

O əlavə edib ki, hadisə nəticəsində Ermənistan ordusu tərəfindən beş nəfərdən ibarət ailə vəhşicəsinə qətlə yetirilib.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:56 PM Page 5



# İlham Əliyev Albaniyaya getdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 15-də Albaniya Respublikasının Baş naziri Edi Ramanın və Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanın dəvəti ilə "Avropa Siyasi Birliyi"nin 6-cı Zirvə toplantısında iştirak etmək üçün Tiranaya işgüzar səfərə gəlib.***

"Unikal" xəbər verir ki, Tirana şəhərinin Beynəlxalq Hava Limanında dövlətimizin başçısını Albaniya Baş nazirinin müavini, İnfrastruktur və energetika naziri Belinda Balluku və digər rəsmi şəxslər qarşıladılar.

# Pakistanın Baş naziri İlham Əliyevə zəng etdi

***Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif mayın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.***



"Unikal" xəbər verir ki, Pakistanın Baş naziri Azərbaycan Prezidentinə Hindistanın ölkəsinə qarşı hərbi hücumları və atəşkəsin əldə olunduğu haqqında məlumat verib. Məhəmməd Şahbaz Şərif baş vermiş böhran zamanı Azərbaycanın göstərdiyi diplomatik, siyasi dəstəyə və Pakistan xalqı ilə həmrəyliyinə görə təşəkkürünü ifadə edib, bunun ölkələrimiz arasında qardaşlıq münasibətlərinin nümunəsi olduğunu bildirib.

Dövlətimizin başçısı regionda atəşkəsin təmin olunduğunu məmnunluqla qeyd edib, Azərbaycan xalqı və dövləti tərəfindən Pakistana dəstəyin və həmrəyliyin ifadə edildiyini bir daha diqqətə çatdırıb.

Telefon danışığı zamanı ölkələrimiz arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

# Xəzər Boru Kəməri Konsorsiumu ilə bağlı sanksiyalar ləğv olundu



***ABŞ Xəzər Boru Kəməri Konsorsiumu (CPC) və Qazaxıstanda qeydiyyatdan keçmiş "Tengizchevroil" şirkəti ilə bağlı əməliyyatlara qarşı sanksiyaları ləğv edib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Maliyyə Nazirliyinin məlumatında deyilir.

"10 yanvar 2025-ci il tarixli qərarla qadağan edilmiş Xəzər Boru Kəməri Konsorsiumu və ya "Tengizchevroil" layihələri ilə bağlı bütün əməliyyatlara icazə verilir", - sənəddə qeyd olunub.

# Zilanlının və Zəngilanın işğalı zamanı çəkilən videomaterial göstərildi



***Bu gün Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində Qubadlının Zilanlı kəndinin və Zəngilanın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı çəkilən videomaterial nümayiş olunub.***

"Unikal" xəbər verir ki, videokadrlarda öldürülərək yandırılmış Azərbaycan polislərinin nəşləri görünür.

Kadrlarda Ermənistan ordusunun hərbçiləri danışırlar. Onlar deyirlər: "Biz bu yüksəkliyi götürmüşük. Buradan o tərəfə İrandır. Bundan sonra Zəngilana gedəcəyik. O tərəflərdə - Araz tərəfdə Zəngilandır. Babalarımızın vəsiyyətini həyata keçirdik, öz məqsədimizə çatmışıq".

Ermənistan ordusunun hərbçiləri üzərində "Daşnaksütyun" yazılmış bayrağın fonunda "Qalx daşnak Dro" mahnısı oxuyurlar.

Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi mayın 16-da davam etdiriləcək.

# Axtarışda olan Xalid Tağıyevin cinayət işi məhkəməyə göndərildi

***Azərbaycanın 2000-ci il sentyabrın birinədək qüvvədə olan Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilərək barəsində axtarış elan olunmuş Xalid Tağıyev barəsində Baş Prokurorluğun İstintaq idarəsində aparılan cinayət işinin istintaqı yekunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə Baş Prokurorluq məlumat yayıb.

İstintaqla Xalid Tağıyevin 1995-1999-cu illər ərzində cinayətkar birlik (banda) təşkil edərək bandanın digər üzvləri ilə birgə Bakı şəhərinin müxtəlif ərazilərində bir sıra ağır və xüsusilə ağır cinayət əməlləri törətməsinə dair əsaslı şübhələr müəyyən edilmişdir.

Belə ki, onun 1998-ci il sentyabrın 2-də Suraxanı rayonu, Əmircan qəsəbəsində yerləşən fərdi yaşayış evinə basqın etməsinə, ev sahibi Məmməd Hacıyevi, həmin ilin sentyabr ayının sonunda Sabunçu rayonu, Bilgəh qəsəbəsində Arif Quliyevi, 1999-cu ilin sentyabr ayının 11-də isə Zahid Vəliyevi qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Bundan başqa Xalid Tağıyevin həmin cinayətkar dəstənin tərkibində oğurluq, quldurluq, nəqliyyat vasitələrini qaçırma, rəsmi sənədləri və möhürləri oğurlama, vəzifəli şəxsin adını özbaşına mənimsəmə, dövlət əmlakını oğurlama, müvafiq icazə olmadan odlu silah və döyüş sursatı əldə etmə, saxlama, gəzdirmə və saxta sənəddən istifadə edərək Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini qanunsuz olaraq keçməyə cəhd etmə hallarında da iştirakı ilə bağlı əsaslı şübhələr müəyyən edilib.

01.07.2000-ci il tarixdə Azərbaycan Respublikasının 01.09.2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilərək barəsində beynəlxalq axtarış elan edilmiş Xalid Tağıyev cari il fevralın 12-də hüquq-mühafizə orqanları tərəfindən saxlanılaraq istintaqa təqdim edilib, növbəti gün ona rəsmi ittiham elan olunub və məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

2025-ci il aprelin 29-da təqsirləndirilən şəxsə qarşı Azərbaycan Respublikasının 01.09.2000-ci ilədək qüvvədə olan Cinayət Məcəlləsinin 70, 94-cü maddəsinin 1, 6, 7, 8-ci bəndləri, eləcə də hazırda qüvvədə olan Cinayət Məcəlləsinin 29, 318.1 və 320.2-ci maddələri ilə yeni ittiham irəli sürülüb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Azərbaycan və Pakistan dəmiryol sahəsində əməkdaşlığın perspektivlərini müzakirə etdi

***Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON Holding) tərkibində fəaliyyət göstərən "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov Pakistanın dəmir yolları üzrə dövlət naziri Bilal Azhar Kayani ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycan və Pakistan arasında dəmiryol sahəsində əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub.

Beynəlxalq nəqliyyat marşrutları üzrə əməkdaşlığın daha da genişləndirilməsi, iki ölkə arasında yük dövriyyəsinin artırılması, eləcə də Pakistan-Əfqanıstan-Türkmənistan-Azərbaycan marşrutu üzrə konteyner daşımalarının təşkili imkanları müzakirə olunub.



Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Azərbaycanda iqtisadi fəal əhalinin sayı açıqlandı

***Cari il mayın 1-i vəziyyətinə olan ilkin məlumatlara əsasən, iqtisadi fəal əhalinin sayı 5 milyon 323,3 min nəfər olub, onlardan 5 milyon 39,6 min nəfərini məşğul əhali təşkil edib.***



Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, cari il aprelin 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1 milyon 774,9 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 880,1 min nəfər, qeyri-dövlət sektorunda isə 894,8 min nəfər təşkil edib. İqtisadiyyatın neftqaz sektorunda 31,5 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1 milyon 743,4 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,7 faizi məhsul istehsalı sahələrində, o cümlədən, 7,6 faizi emal sənayesində, 6,6 faizi tikintidə, 2,6 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 2,4 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 1,8 faizi mədənçıxarma sənayesində, 1,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,6 faizi təhsil, 8,5 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,3 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,2 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,9 faizi peşə, elmi və texniki fəaliyyət, 3,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 3 faizi istirahət, əyləncə və incəsənət, 2,3 faizi maliyyə və sığorta fəaliyyəti, 2 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

2025-ci ilin I rübünün sonuna ölkə ərazisində haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş və müddəti uzadılmış iş icazələrindən qüvvədə olanlara malik olan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin sayı 2067 nəfər olub. Onlardan 41,5 faizi tikintidə, 10,7 faizi emal sənayesində, 8,1 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 7,6 faizi mədənçıxarma sənayesində, 5,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 4,5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi və 22,1 faizi digər sahələrdə məşğul olmaq üçün iş icazələrinə malik olub. 2025-ci ilin yanvar-mart aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 135,8 saat təşkil edib.

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:56 PM Page 6



# "Dövlət əleyhinə çağırışlar etməyimə peşmanam" - Məhkəmə

***Dövlət əleyhinə çağırışlarda təqsirləndirilərək saxlanılan Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Qaradağ rayon şöbəsinin sədri Zaur Əsgərov və Binəqədi şöbəsinin üzvü Gündüz Mirzəyevin cinayət işi üzrə məhkəmənin baxış iclası keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə keçirilən prosesdə məhkəmənin qərarı ilə təqsirləndirilənlər vəkillərinin yanında əyləşərək iclasda iştirak ediblər.

Prokuror Rauf Malışov ittiham nitqi ilə çıxış edərək təqsirləndirilənlərə ittiham aktını elan edib.

Təqsirləndirilənlər Zaur Əskərov və Gündüz Mirzəyev 8 ci kilometr bazarinda tanış olduqları, əvvəllər məhkum olunmuş Elşən Kərimovla tanıs olaraq AXCP-,nin "dostluq" votsap qruplaşmasina qoşularaq sərhlər yazıblar.

Həmin qruplasmalarda ani mesajlaşma vasitəsiylə dövlət əleyhinə müxtəlif şüarlar səsləndiriblər. Bununla da, onlar ölkədə konstitusion quruluşun dəyişdirilməsi ilə bağlı çağırışlar ediblər.

Zaur Əskərov ittihamla özünü təqsirli bilməsədə digər təqsirləndirilən Gunduz Mirzəyev özünü təqsirli bilərək törətdiyi əmələ görə peşiman olduğunu deyib.



Prosesin növbəti mərhələsində Zaur Əskərov və Gunduz Mirzəyevə sərbəst ifadələri üçün söz verilib.

Gündüz Mirzəyev ifadəsində bildirib:"İstintaq materiallarina əlavə edilmis səs yazılarım 2020-ci ilə təsadüf edir.Bilmədən,savadsızlığimdan belə bir məzmunda çixışlar etmişəm.Əvvəllər məhkum olunmuşam,həbsdən sonra AXCP-yə qoşulmuşam bir müddət sonra partiya siralarından ayrılmışam.Səmimi peşimanam.Düşünürdüm ki,itirilmis hüquqlarımın bərpası ancaq bu yolla mümkündür,lakin zaman keçdikcə gördüm ki,bu belə deyil"

Digər təqsirləndirilən Zaur Əskərov istintaqa verdiyi ifadəsini təsdiq edərək sərbəst ifadədən imtina edib.

Tədqirlənirilənə verilən suallardan bəlli olub ki,o da həmçinin AXCP-nin votsapp "dostluq"qrupunun üzvu olub.Həmin qrupda müəyyən çağırışları görsədə özünun bilavasitə dövlət əleyhinə hər hansı bir çağırış etmədiyini deyib.

Rusiya vətəndaşı olan ,hazırda həbsdə olan Elşən Kərimov komvoyun müşayəti ilə prosesdə şahid kimi ifadə verib.O da həmcinin ibtidai istintaqa verdiyi ifadəsinin təsdiq edib.Rəhbəri olduğu "Azərbaycan naminə"ictimai birliyinin əsasəs Rusiya ərazisində fəaliyyət göstərdiyini vurğulayaraq,əsas məqsədlərinin isə Rusiyada yaşayan həmyerlilərimizin müəyyən problemlərindən məlumatlanmaq olub.Həmçinin dövlət əleyhinə hər hansı bir çağırışlar etmədiyini də deyib.

Növbəti proses mayın 22-nə təyin edilib.

Qeyd edək ki, Zaur Əsgərov və Gündüz Mirzəyev martın 7-də saxlanılıblar. Onlara Cinayət Məcəlləsinin 281.2-ci (dövlət əleyhinə açıq çağırışlar, təkrar və ya bir qrup şəxs tərəfindən törədildikdə) maddəsiylə ittiham irəli sürülüb. Cinayət işinin istinaqı Baş Prokurorluğun İstintaq İdarəsində aparılıb.

***Seymur Əli***

# Baş prokuror Kamran Əliyev müşavirə keçirdi

***Mayın 15-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərliyi ilə Baş Prokurorluğun, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin, Respublika Hərbi, Naxçıvan Muxtar Respublikası və Bakı şəhər prokurorluqlarının məsul şəxslərinin iştirakı ilə əməliyyat müşavirəsi keçirilib.***

"Unikal" xəbər verir ki, müşavirədə çıxış edən Baş prokuror 2025-ci ilin 4 ayı ərzində prokurorluq orqanlarının fəaliyyəti və görülmüş işləri təhlil edərək qarşıda duran vəzifələrə dair bir sıra tapşırıqlar verib.

Qeyd edilib ki, Ümummilli Lider Heydər Əliyevin qurucusu və banisi olduğu müasir Azərbaycanda Prezident cənab İlham Əliyevin çağdaş dövrün çağırışlarına uyğun islahatlar həyata keçirməsi hüquq sahəsində də müasirləşməni təmin edib və bu islahatlar prokurorluq orqanlarının fəaliyyətinə müsbət təsirini göstərib, xidməti fəaliyyətdə keyfiyyət və səmərəlilik nəzərəçarpacaq dərəcədə yüksəlib. Lakin, əldə edilmiş nailiyyətlərə kifayətlənilməməli, mövcud vəziyyət təhlil edilməklə, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilərək fəaliyyətin daha da səmərəli olması üçün tədbirlərin icrası davam etdirilməlidir.

Çıxış zamanı həmçinin qeyd olunub ki, prokurorluq orqanları tərəfindən dövlətin təhlükəsizliyinə qəsd edən cinayətlərə qarşı mübarizə bundan sonra da gücləndirilməli, cinayətkarlığın bütün növlərinə qarşı mübarizə sahəsində və qanunçuluğun qorunmasında digər



hüquq-mühafizə orqanları ilə koordinasiyalı fəaliyyət davam etdirilməlidir.

Baş prokuror prokurorluğun qanunla müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə, o cümlədən prosessual rəhbərlik və prosessual nəzarət, ibtidai araşdırmanın keyfiyyətinin və tezliyinin artırılması, qətimkan tədbirlərinin seçilməsi, dövlət ittihamının müdafiəsi, vətəndaşların müraciətlərinə baxılması sahəsində işin səmərəliliyinin artırılması istiqamətində konkret göstərişlər verib.

Bundan başqa Baş prokuror əhalinin hüquqi biliyinin artırılması istiqamətində konkret sahələr üzrə maarifləndirmə tədbirlərinin həyata keçirilməsinin, ali təhsil müəssisələrinin hüquq fakültələri ilə gənc hüquqşünaslarının yetişdirilməsi işində yaxından əməkdaşlıq edilməklə tədris prosesində prokurorluq əməkdaşlarının iştirakının davam etdirilməsinin vacibliyini vurğulayıb.

Çıxış zamanı həmçinin ikitərəfli və çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsinin zəruriliyi diqqətə çatdırılıb və prokurorluq əməkdaşları tərəfindən xarici ölkələrdə təlim-tanışlıq tədbirlərində iştirak etməklə qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqinin təmin edilməsinin vacibliyi qeyd olunub.

Baş prokuror tərəfindən "Elektron Prokurorluq" informasiya sisteminin bütün prokurorluq orqanlarında tətbiq olunduğu, bu sistemin həmçinin cinayət-prosessual fəaliyyətin rəqəmsal müstəviyə keçməsinə imkan verdiyi bildirilməklə müasir çağırışlara uyğun olaraq sistemin daim təkmilləşdirilməsi və mümkün fəaliyyət istiqamətləri üzrə süni intellektin tətbiq edilməsi imkanlarının nəzərdən keçirilməsi ilə bağlı göstərişlər verilib.

Müşavirə zamanı həmçinin xidməti fəaliyyətin konkret sahələri üzrə yol verilmiş nöqsanlar səsləndirilməklə onların aradan qaldırılması istiqamətində görülməli işlər, qarşıda duran vəzifələr barədə geniş müzakirələr aparılıb.

Yekunda Baş prokuror prokurorluq əməkdaşlarının bundan sonra da Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə üzərlərinə düşən vəzifələri layiqincə icra edəcəklərinə, vətəndaşlarının hüquq və azadlıqlarının müdafiəsi, cinayət təqibi və cinayət təqibindən kənar icraatın həyata keçirilməsində qanunların icrasına nəzarətin ən yüksək səviyyədə həyata keçirəcəklərinə əminliyini ifadə edib.

# Anar Ələkbərov "44" adlı bədii filmin çəkiliş meydançasında olub



***Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə Vətən müharibəsinə həsr olunan "44" adlı tammetrajlı bədii filmin çəkilişləri davam edir.***

"Unikal" xəbər verir ki, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov çəkiliş aparılan ərazidə olub.

Qeyd edək ki, Vətən müharibəsindəki tarixi Zəfərə gedən yolu ekranlara gətirən bədii filmdə baş rolları Azərbaycanın istedadlı aktyoru İbrahim Çingiz və Türkiyənin tanınmış aktrisası Özge Gürel canlandırırlar. Çəkilişlər Bakı şəhəri ilə yanaşı, Ağdam, Cəbrayıl, Füzuli, Gəncə, Hadrut, Xankəndi, Xocavənd, Şuşa və digər bölgələrdə aparılır.

# Bu mallara dair təhlükəsizlik tələbləri təsdiqlənəcək



***"Uşaqlar və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş malların təhlükəsizliyinə dair texniki reqlament" üzrə layihə ictimai müzakirəyə çıxarılıb.***

"Unikal" bu barədə Antiinhisar və İstehlak Bazarlarına Nəzarət Dövlət Agentliyinə istinadən xəbər verir.

Məlumata görə, ictimai müzakirə bitdikdən sonra layihə təsdiq edilməsi üçün Nazirlər Kabinetinə təqdim ediləcək.

Qeyd edək ki, "Uşaqlar və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş malların təhlükəsizliyinə dair texniki reqlament" "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının Qanununun7-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasının ərazisində uşaqların və yetkinlik yaşına çatmayanlarin həyat və sağlamlığının qorunması, habelə istehlakçıları çaşdıran halların qarşısının alınması məqsədi ilə kimyəvi, bioloji, mexaniki və termik təhlükəsizlik baxımından uşaq və yetkinlik yaşına çatmayanlar üçün nəzərdə tutulmuş mallara dair məcburi tələbləri müəyyən edir.

# "Georgi lenti"ni həmin tədbirə gətirənlər bəlli oldu

***İmişli rayonunda 9 may tədbirləri zamanı imperializmin simvolu olan "Georgi lenti" ilə bağlı bir sıra faktlar məlum olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, "Georgi lenti"ni rayon tədbirinə Bakıdan Rus İcmasının nümayəndəsi gətirib.

Belə ki, tədbirə Rus Mədəniyyət Mərkəzinin direktoru Manafova Qalina Yakovlevna və onun müavini deyilən bir nəfər qatılıb. O, tədbirin əvvəlində bütün iştirakçılara "Georgi lenti"ni verib. Təxribatçı addımın səbəbkarı tədbirdə çıxış edən azyaşlı qız uşağına da həmin lenti verməkdən çəkinməyib.

Maraqlısı isə odur ki, "rus obşinası"nın nümayəndələri özləri "Georgi lenti" taxmayıblar.

Xatırladaq ki, Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı Eldar Quliyev bu barədə "Unikal"a açıqlamasında deyib: "Mən axtarıram ki, həmin "Georgi lenti"ni bunlara kim verib". Daha əvvəl isə tədbirdəki SSRİ bayraqlarının Saleh Səməovun göstərişi ilə hazırlandığını yazmışdıq.

***Ağarza Elçinoğlu***



# Ordumuzda komanda-qərargah məşqi keçirilir

***2025-ci ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusu miqyasında komanda-qərargah məşqi keçirilir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, Müdafiə Nazirliyinin baş idarə və idarələri, eləcə də qoşun və qüvvə növləri, Əlahiddə Ümumqoşun Ordunun qərargahlarının cəlb olunması ilə keçirilən məşqin planına əsasən, hərbi qərar qəbuletmə prosesinə uyğun fəaliyyətlər icra olunur.

Mayın 15-də müdafiə naziri general-polkovnik Zakir Həsənov videobağlantı formatında qərargahların məruzələrini dinləyib.

Müdafiə naziri Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusunun fəaliyyətindən razılığını bildirib və Ordu qarşısında qoyulan tapşırıqları çatdırıb.

Real döyüş şəraitində müasir döyüş təcrübəsinə uyğun keçirilən komanda-qərargah məşqinin məqsədi bölmələrin manevr imkanlarını nəzərə almaqla hərbi qərar qəbuletmə prosesinin daha da təkmilləşdirilməsi, eləcə də müdafiə və əks-hücum əməliyyatlarının aparılması məsələlərinin məşq etdirilməsidir.

# AMB bu banklarla bağlı məcburi sərəncam verib




***Azərbaycan Mərkəzi Bankı (AMB) "Azərbaycan Sənaye Bankı" və "Bank Avrasiya" ASC-lərə icrası məcburi sərəncam verib.***

Bu barədə "Unikal" AMB-yə istinadən xəbər verir. Məlumata görə, "Banklarda korporativ idarəetmə Standartları"nın 4.8-ci bəndinin tələbinin pozulmasına görə "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 47.1-ci maddəsinin tələbləri rəhbər tutularaq, Mərkəzi Bank tərəfindən "Bank Avrasiya" ASC və "Azərbaycan Sənaye Bankı" ASC-yə müvafiq pozuntunun qısa müddətdə aradan qaldırılması və qeyd olunan halların gələcəkdə təkrarlanmaması üçün daxili prosedurların təkmilləşdirilməsi ilə bağlı icrası məcburi sərəncam verilib.

# Bu il Qarabağ və Şərqi Zəngəzura 750 mln. investisiya yatırılıb

***Bu ilin yanvar-mart aylarında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına ümumilikdə 738 milyon 383 min manat investisiya yatırılıb.***

Bu barədə "Unikal"a Dövlət Statistika Komitəsindən bildirilib. Məlumata görə, bu məbləğin 727 milyon 996 min manatı tikinti-quraşdırma işlərinə sərf edilib.

İlin birinci rübündə Qarabağ iqtisadi rayonu üzrə yatırılan investisiyaların həcmi 316 milyon 950 min manat təşkil edib. Həmin məbləğin 310 milyon 815 min manatı tikinti-quraşdırma işlərinə aid olub.

Üç ayda Şərqi Zəngəzur iqtisadi rayonuna 421 milyon 432 min manat investisiya yatırılıb. Bu məbləğin 417 milyon 180 min manatı tikinti-quraşdırma işlərinə sərf edilib.

# "Ali məktəblərə qəbulda keçid ballarında artım olacaq"

## Kamran Əsədov: "DİM ilə Elm və Təhsil Nazirliyi bu məsələdə şəffaf, əvvəlcədən planlaşdırılmış və ictimai əsaslandırmaya dayanan qərarlar qəbul etməlidir"

***Təhsil eksperti Kamran Əsədov "Unikal"a müsahibə verib. O, "Son zəng"ə görə pul tələb edən məktəb direktorunun işdən çıxarılmasından, "Son zəng" tədbirlərinin dəbdəbəli keçirilməsindən, direktorların seçiminin necə aparılmalı olduğundan və bu il ali məktəblərə qəbul imtahanları üzrə keçid ballarının necə dəyişəcəyindən danışıb.***

***- Bu günlərdə Bakıda "Son zəng"ə görə pul tələb edən məktəb direktoru işdən çıxarıldı. Əvvəl də belə hallara görə işdən azad edilənlər olub. Məktəblərdə digər hansısa məsələlərə görə də pul yığılması ilə bağlı şikayətlər olur. Bu halların qarşısının birdəfəlik alınması üçün hansı addımlar atılmalıdır?***

- Məktəblərdə "Son zəng" tədbirləri ilə bağlı son günlərdə cəmiyyətin gündəminə çevrilmiş məsələlər, xüsusilə də vəsait toplanması ilə bağlı qalmaqallar, təhsil sistemində illərdir mövcud olan struktur və nəzarət boşluqlarını yenidən aktuallaşdırır. Ən son hadisə ilə bağlı Bakıdakı məktəblərdən birinin direktoru vəzifəsindən azad olunub. Bu, ilk deyil. 2022 və 2023-cü illərdə də eyni səbəbdən bir neçə direktor intizam cəzası almış və ya işdən uzaqlaşdırılmışdı. Amma bu cəza mexanizmi problemin kökünə enmir və situativ müdaxilə kimi qalır. Əgər hər il eyni məsələ gündəmə gəlirsə, deməli, bu, fərdi deyil, sistemli problemdir. Məktəblərdə vəsait toplanması məsələsi təkcə "Son zəng"lə məhdudlaşmır. İlin müxtəlif mərhələlərində - təmir, tədbir, kamera, qızdırıcı, hətta sinif otağının təmizliyi üçün belə, valideynlərdən vəsait istənilməsi barədə kütləvi şikayətlər daxil olur. "Təhsil haqqında" qanunun 14.2.3-cü maddəsinə əsasən, təhsilalanın təhsil alması zamanı əlavə ödəniş tələb olunması yolverilməzdir. Lakin bu norma real həyatla uzlaşmır, çünki məktəblər faktiki olaraq heç bir tədbir, infrastruktur dəstəyi üçün müstəqil büdcə ilə təmin olunmurlar. Bu isə direktorları qeyri-rəsmi yolla "təşkilatçılığa" məcbur edir. Problemin həlli üçün ilk növbədə məktəblərə maliyyə muxtariyyəti verilməli, dövlət vəsaiti ilə hər tədbir və fəaliyyət üçün rəsmi büdcə ayrılmalıdır. Eyni zamanda, direktorların maliyyə fəaliyyəti üzrə ictimai monitorinq və hesabatlılıq təmin olunmalıdır. Məktəblərdə ictimai nəzarət şuraları kağız üzərində yox, faktiki iştirak və qərarverici statusa malik qurumlara çevrilməlidir.

***- Ümumiyyətlə, məktəblərdə "Son zəng" tədbirlərinin daha dəbdəbəli keçirilməsi, bunun üçün bəzi məktəblərdə pul yığılması halları ortaya çıxır. Sizcə, "Son zəng" tədbiri necə keçirilməlidir?***

- "Son zəng" tədbirinin özü son illərdə təmtəraqlı, formal və sosial baxımdan bərabərsizliyi gücləndirən bir məzmun alıb. Əslində bu tədbir məktəbin rəsmi tədbiridir və onun təşkili qanunla dövlətin təhsil siyasətinin bir hissəsi kimi tənzimlənir. Elm və Təhsil Nazirliyinin 2024-cü il üçün verdiyi rəsmi göstərişdə qeyd olunur ki, "Son zəng" sadə, simvolik və təntənəsiz şəkildə, məktəb binası daxilində, yaradıcılıq və şagird iştirakı ilə həyata keçirilməlidir. Lakin reallıqda məktəbdənkənar məkanlarda, pullu musiqiçilər, fotoqraflar və bahalı dekorasiyalarla tədbirlər təşkil olunur. Bu, həm ailələrə əlavə maddi yük yaradır, həm də məktəbdəki sosial bərabərsizliyi dərinləşdirir. Təklif olunan alternativ - mədəniyyət mərkəzlərində və ya məktəbin akt zalında, valideyn və şagirdlərin iştirakı ilə sadə musiqi və xatirə nitqləri ilə rəsmi mərasim formasında keçirilməsi daha uyğun və bərabərhüquqlu olardı. Təhsil Nazirliyi bu məsələdə daha sərt normativlər müəyyən etməli və bütün məktəblər üzrə vahid format tətbiq etməlidir.

***- Zaman-zaman məktəb direktorları ilə bağlı tənqidi fikirlər səslənir. Sizcə direktorların seçimi necə aparılmalıdır?***

- Direktorlarla bağlı ictimai narazılığın əsas səbəbi onların seçilmə və qiymətləndirilmə mexanizmlərinin qeyri-şəffaf olmasıdır. 2022-ci ildən tətbiq olunan direktorların müsabiqə yolu ilə seçilməsi mexanizmi müsbət addım sayılsa da, bu prosesin obyektivliyi ilə bağlı suallar davam edir. Ən böyük problem isə seçilən direktorların təlim keçdikdən sonra məktəblərə nəzarətsiz təyin olunması və onların fəaliyyətinə ictimai qiymətləndirmənin olmamasıdır. Direktorların fəaliyyətinə dair indikatorlar - şagirdin inkişafı, məktəb mühiti, kollektivin razılığı və ictimai dəstək kimi meyarlar sistemə daxil edilməlidir. Eyni zamanda, hər bir direktorun fəaliyyəti ildə bir dəfə ictimai əsaslarla monitorinq edilməli, nəticələrə əsasən qərar verilməlidir. Həmçinin, məktəb direktorlarının məktəbin daxili idarəetməsində tam səlahiyyət sahibi olması, lakin bunun qarşılığında güclü ictimai və inzibati nəzarətə tabe olması mexanizmi qurulmalıdır.

***- Hər il ali məktəblərə qəbul imtahanları üzrə keçid ballarında dəyişikliklər olur. Bu illə bağlı proqnozlar necədir, artımlar gözlənilirmi?***

- Ali məktəblərə qəbul imtahanlarında keçid ballarındakı dəyişikliklər illərdir ictimai narahatlıq yaradır. 2024-cü ilin nəticələrinə əsasən, bir çox ixtisaslarda keçid ballarında ciddi artım müşahidə olunub. Məsələn, I və IV ixtisas qruplarında ötən ilə nisbətən 20-30 ballıq artım qeydə alınıb. Bu tendensiya 2025-ci ildə də davam edə bilər, çünki buraxılış imtahanlarında 150 baldan yuxarı nəticə göstərən abituriyentlərin sayı ötən ilə nisbətən təxminən 10 min nəfər artıb. Bu da ixtisas seçimi mərhələsində daha ciddi rəqabətə, nəticədə isə keçid ballarında artıma səbəb olacaq. Xüsusilə, süni intellekt, proqramlaşdırma, iqtisadiyyat və beynəlxalq münasibətlər kimi sahələrdə bal artımı gözlənilməndir. Ancaq problem təkcə bal artımı deyil. Keçid ballarının imtahan nəticələrindən sonra dəyişdirilməsi, müsabiqə şərtlərinin gecikdirilərək açıqlanması və bəzi hallarda əlavə meyarların əlavə olunması (məsələn, V qrupda 70-dən 80 bala dəyişiklik) abituriyentlərdə etimad böhranı yaradır. DİM ilə Elm və Təhsil Nazirliyi bu məsələdə şəffaf, əvvəlcədən planlaşdırılmış və ictimai əsaslandırmaya dayanan qərarlar qəbul etməlidir. Ən əsası isə keçid balı təhsilin hədəfi olmamalı, tələbənin ixtisasa uyğunluğu, motivasiyası və gələcək inkişafı əsas göstərici kimi nəzərə alınmalıdır. Əgər bu məsələlər sistemli şəkildə həll olunmasa, təhsildə mövcud olan qeyri-bərabərlik, etimadsızlıq və keyfiyyət fərqləri daha da dərinləşəcək. Bu isə nə şagirdin, nə müəllimin, nə də cəmiyyətin maraqlarına cavab verir. Ona görə də bu problemləri fərdi hadisə kimi yox, struktur və sistem səviyyəsində dəyərləndirib, hüquqi-normativ və inzibati əsaslarla həll etmək zəruridir.



***Anar Kəlbiyev***

# Əbülfəs Qarayev Rusiyadakı biznesini böyüdür

## Sabiq mədəniyyət naziri Moskvaya köçməyə hazırlaşır?

***Sabiq mədəniyyət naziri Əbülfəs Qarayevin Rusiyada fəaliyyət göstərən şirkəti ötən il 146 milyon 636 min rubl (1 milyon 585 min dollar) gəlir əldə edib...***

Xatırladaq ki, Əbülfəs Qarayev 2023-cü ilin may ayında Rusiyada "Korporasiya ÇE" (OOO "Korporaüiə ÇE" - İNN: 7725322819) adlı şirkətin 50 faizlik payını satın alaraq, iki təsisçidən biri olub ("Yeni avaz".

"Korporasiya ÇE" şirkətinin digər təsisçisi - Əbülfəs Qarayevin biznes ortağı, Rusiya vətəndaşı Levkoviç Aleksandr Nikolaeviçdir. Hər iki təsisçinin şirkətin nizamnamə kapitalındakı payı 10 000 rubl təşkil edir.



Qeyd edək ki, "Korporasiya ÇE" şirkəti 11 iyul 2016-cı ildə dövlət qeydiyyatına alınıb. Əbülfəs Qarayev şirkətin 50 faizlik payına sahib olduqdan sonra hüquqi ünvan Moskva şəhəri, Dnepropetrovskaya, ev 3, korpus 5, mənzil 3/1 ünvanına dəyişdirilib.

Şirkətin fəaliyyət sahəsinə balıq, xərçəngkimilər və molyusklar da daxil olmaqla, digər ərzaq məhsullarının topdan satışı daxildir.

Məlumat üçün bildirək ki, "Korporasiya ÇE" şirkətinin 2023-cü ildəki ümumi gəlirləri 106 milyon 521 min rubl olub. Bir il əvvəl - 2022-ci ildə isə şirkətin ümumi gəlirləri cəmi 554 min rubl təşkil edib. Rəqəmlərdən də göründüyü kimi, Əbülfəs Qarayev şirkətin 50 faizlik payına sahib olduqdan sonra gəlirlər 192 dəfə artıb.

Onu da bildirək ki, 2023-cü illə müqayisədə ötən il şirkətin gəlirləri 39 faiz və ya 41 milyon 247 min rubl artsa da, xalis mənfəəti 41 faiz və ya 219 min rubl azalaraq 312 min rubl (3,4 min dollar) olub.

Xatırladaq ki, 1994-cü ildən 2020-ci ilə qədər - 26 il nazir vəzifəsində çalışan Əbülfəs Qarayevin qızı Suad Maleki (Qarayeva) də uzun illərdir Rusiyada biznes fəaliyyəti ilə məşğuldur.

Suad Malekinin yeganə təsisçisi olduğu "GALS" şirkəti 5 iyul 2013-cü ildə Moskva şəhəri, Tatar küçəsi 7 ünvanında dövlət qeydiyyatına alınıb. Şirkət daşınmaz əmlakın alqı-satqısı ilə məşğuldur.

Mətbuatda yayılan məlumatda bildirilir ki, "GALS" - sabiq nazirin özünün və ailə üzvlərinin adlarının baş hərflərindən (Garaev, Abulfas, Lalə (həyat yoldaşı) və Suad (qızı)) ibarətdir. "GALS" şirkətinin ötənilki gəlirləri 7 milyon 560 min rubl (81,7 min dollar), xalis mənfəəti isə 7 milyon 17 min rubl (75,8 min dollar) olub.

Hərçənd ötən ilin payızında Qarayevin qızının adına rəsmiləşdirilmiş "QALS" şirkətinin son bir il ərzində 7,1 milyon rubl (79 min dollar) gəlir əldə etdiyi açıqlanmış, bu barədə Rusiya Vergilər xidmətinin məlumatından aydın olmuşdu. Həmin məlumatda bildirilmişdi ki, Suad Malekinin yeganə təsisçisi olduğu "QALS" şirkətinin gəlirləri əvvəlki illə müqayisədə 2,9 milyon rubl və ya 29% azalıb.

"Unikal"ın əldə etdiyi yeni məlumata görə, Əbülfəs Qarayev Rusiyadakı biznesini genişləndirməyin yollarını axtarır. Onun bu ölkədə hotel və kurort biznesinə maraq göstərdiyi deyilir. Yaxın vaxtlarda sabiq nazirin sözügedən sahələrə investisiya qoyduğu barədə xəbərlər yayılsa, qətiyyən təəccüb doğurmayacaq.

Hətta Qarayevin bir müddətdir Rusiya paytaxtına köçmək istədiyi yönündə də iddialar var. Onun Moskvanın mərkəzi ünvanlarından birində şəxsi mənzilinin olduğu, birdəfəlik Rusiya paytaxtına köçməsə belə, ilin bir hissəsini həmin mənzilində keçirərək adı çəkilən ölkədəki biznesini genişləndirmək üçün birbaşa özünün səylər göstərməyə hazırlaşdığı vurğulanır.

Xatırladaq ki, Əbülfəs müəllim 2006-2018-ci illərdə mədəniyyət və turizm, 2018-2020-ci illərdə isə mədəniyyət naziri postunu tutub. 2020-ci ilin mayında Mədəniyyət Nazirliyində Dövlət Təhlükəsizlik Xidməti (DTX) tərəfindən keçirilən xüsusi əməliyyat zamanı rüşvət və korrupsiya faktları aşkarlanmış, bəzi yüksək vəzifəli şəxslər saxlanılmışdı. Həmin vaxt Qarayevin də cinayət məsuliyyətinə cəlb edilməsi gözlənilsə də, bu, baş vermədi. O, vəzifəsindən azad olunmaqla canını qurtardı. Düzdür, eks-nazirin ölkədən çıxışına yasaq qoyulduğu, hətta Türkiyəyə getmək istəyərkən hava limanından geri qaytarıldığı yönündə iddialar ortaya atılsa da, bu, məlumatlar rəsmi təsdiqini tapmadı.

Aradan keçən 5 ildə Ə.Qarayev bütün diqqətini şəxsi biznesinin idarəçiliyinə yönəldib. Onun xüsusilə Rusiyadakı ailə şirkətlərini böyütməyin planlarını qurduğu iddia edilir.

Onu da deyək ki, vaxtilə yerli KİV sabiq mədəniyyət nazirinin ailə şirkətləri Azərbaycan və Rusiya, Litva, Panama, Malta kimi ölkələri də əhatə etdiyini yazıb. İddia edilib ki, Qarayev nazir postunda ikən korrupsiya yolu ilə topladığı pulları həmin ölkələrə daşıyıb və müxtəlif biznes layihələrinə yatırıb. Belə iddialar indiyədək nə təsdiq, nə də təkzib olunub.

***Toğrul Əliyev***



# Ramil Usubov Türkiyənin Təhlükəsizlik Şurasının Baş katibi ilə görüşdü

***Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının (TŞ) katibi, general-polkovnik Ramil Usubov mayın 13-də ölkəmizdə səfərdə olan Türkiyə Respublikası Milli Təhlükəsizlik Şurasının Baş katibi Okay Memişin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də iştirak edib.

R.Usubov ümidvar olduğunu bildirib ki, yeni məsul vəzifəsində Baş katibin ölkəmizə ilk səfərinin, bugünkü tədbirin, xüsusilə də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə keçirilən görüşün iki qardaş dövlət ərazisində əmin-amanlığın və təhlükəsizliyin gücləndirilməsi işinə öz töhfəsini verəcəkdir.

Cənab Okay Memiş müvafiq qurumlarımız arasında əlaqələrin möhkəmlənməsi və daha da dərinləşməsi üçün səylərini əsirgəməyəcəyini, belə görüşlərin təhlükəsizlik sahəsində birgə fəaliyyətin təkmilləşməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin üzvləri Ümummilli Lider Heydər Əliyevin məzarını, Şəhidlər xiyabanını və Türk Şəhidliyi abidəsini ziyarət ediblər.

# İnam Kərimov Məhkəmə-Hüquq Şurasının iclasını keçirdi



***2025-ci ilin mayın 14-də Məhkəmə-Hüquq Şurasının növbəti iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda hakim vəzifəsinə namizədlərin seçim prosesinin müasir standartlara uyğun təkmilləşdirilməsi məqsədilə hazırlanan layihə ətrafında fikir mübadiləsi aparılıb. Eyni zamanda "Azərbaycan Respublikasının məhkəmələrində kargüzarlığın aparılmasına dair Təlimat"ın yenidən işlənilmiş layihəsi müzakirə edilib.

Daha sonra Hakimlərin Seçki Komitəsinə yeni üzv seçilməsi məsələsinə baxılıb.

İclasda həmçinin görülmüş işlər, qarşıda duran vəzifələr diqqətə çatdırılıb, məhkəmə fəaliyyətinə dair məruzələr dinlənilib, intizam icraatı üzrə işlərə və kadr məsələlərinə baxılaraq müvafiq qərarlar qəbul edilib.

Sonda təqaüdə yola salınan hakimlər uzun illər məhkəmə sistemində öz fəaliyyəti ilə ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfə verdiklərinə görə fəxri fərmanla təltif ediliblər.

# Dövlətə xəyanətdə təqsirləndirilən şəxs hakim qarşısına çıxarıldı

***Dövlətə xəyanətdə ittiham olunan Azərbaycan Respublikasının vətəndaşı Zamanlı İsmayıl Rafail oğlu barəsində Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) başlanılmış cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Telman Hüseynovun sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib, onun barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilmədən cinayət işinin məhkəmə istintaqına verilməsi ilə bağlı qərar qəbul olunub.

Məhkəmənin növbəti iclası mayın 21-nə təyin olunub.

Qeyd edək ki, İsmayıl Zamanlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü maddəsi ilə, yəni Azərbaycan Respublikasının suverenliyi, ərazi toxunulmazlığı, dövlət təhlükəsizliyi və müdafiə qabiliyyəti zərərinə olaraq xarici ölkənin xüsusi xidmət orqanı nümayəndələrinin tapşırıqlarını yerinə yetirməklə dövlətə xəyanət etməkdə ittiham olunur.

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:57 PM Page 9



## "Əkinçi" qəzeti dövrü üçün böyük fədakarlıq idi - Rəşad Məcid



***"Əkinçi" qəzetinin fəaliyyətə başlaması həmin dövr üçün böyük fədakarlıq idi".***

"Unikal" xəbər verir ki, bu fikirləri Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfransın açılış mərasimində Mətbuat Şurasının sədri Rəşad Məcid səsləndirib.

O bildirib ki, sovet dövründə Azərbaycan mətbuatı ana dilimizin qorunmasında mühüm rol oynayıb. Həmin dövrdə fəaliyyət göstərən "Kommunist", "Azərbaycan gəncləri" kimi qəzetlərdə milli ideyalar öz əksini tapırdı. 1991-ci ildən sonra ölkəmizdə media orqanlarının sayı artmağa başladı. Azərbaycan mətbuatı tarixində ən əlamətdar hadisələrdən biri isə 1998-ci il avqustun 6-da baş verdi. Həmin gün Ümummilli Lider Heydər Əliyev "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu, mətbuatın inkişafı istiqamətində mühüm addım oldu və sonrakı illərdə də ardıcıl fəaliyyət davam etdirildi.

"Bu gözəl ənənə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev hər zaman müstəqil dövlət üçün müstəqil medianın vacibliyini vurğulayır. Ölkəmizdə "Media haqqında" yeni qanunun qəbulu, Medianın İnkişafı Agentliyinin yaradılması da Prezidentin bu sahədə apardığı siyasətin nəticəsidir", - deyə R.Məcid vurğulayıb.

## Əhali restoranlara 764 milyon manat xərcləyib



***Cari ilin yanvar-aprel aylarında ictimai iaşə dövriyyəsi ötən ilin müvafiq dövrü ilə müqayisədə real ifadədə 17,7 faiz artaraq 764 milyon manat olub.***

Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, özəl sektorda ictimai iaşə dövriyyəsinin 51,1 faizi hüquqi şəxslərin, 48,9 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin payına düşür.

Hüquqi şəxslər üzrə dövriyyə 2024-cü ilin eyni dövrü ilə müqayisədə 17,6 faiz artaraq 386,6 milyon manat olub.

## Azərbaycana daimi yaşamaq üçün 773 nəfər gəlib



***Bu ilin yanvar-mart ayları ərzində Azərbaycana daimi yaşamaq üçün 773 nəfər gəlib.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Bildirilib ki, 2025-ci ilin yanvar-mart ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün Azərbaycana 773 nəfər gələn, Azərbaycandan isə 467 nəfər gedən qeydə alınıb, ölkə üzrə miqrasiya saldosu müsbət 306 nəfər təşkil edib.

# Sovet bayrağı qaldıran, "Georgi lenti" taxan oliqarxın gizlinləri

## Əmək fəaliyyəti məmurluqda keçən sabiq sədrin ağlasığmaz varidatı - Saleh Səmədov bu qədər sərvətə necə sahib olub?

***Azərbaycanda bir sıra sabiq vəzifəli şəxslərin rusperəstliyi ilə bağlı bir müddət öncə cəmiyyətdə və mediada ciddi müzakirələr başlamışdı; Ramiz Mehdiyev, Elmar Məmmədyarov, Əbülfəs Qarayevin adları da həmin şəxslərin arasında idi, hərçənd onlardan bəziləri bunu təkzib edən açıqlamalarla çıxış etdilər. Lakin reallıq ondan ibarətdir ki, ölkədə müəyyən məmurlar da daxil olmaqla, bir çoxlarının Azərbaycana və dünyaya "Rusiya pəncərəsindən" baxdığına dair ictimai rəydə güclü qənaət hakimdir.***

Bu həftə gündəmə bomba kimi düşən və böyük ajiotaj yaradan hadisəyə də elə yuxarıda yazdıqlarımız kontekstində yanaşmaq lazımdır. Söhbət İmişlidə 9 may tədbirləri zamanı SSRİ bayrağı qaldırılmasından və tədbir iştirakçılarının yaxalarına "Georgi lenti" taxmasından gedir. Belə bir anormal addımın təşəbbüskarı və aparıcı fiquru isə rayon Ağsaqqallar Şurasının sədri (13.05.2025 tarixində vəzifəsindən azad edilib - red.) Saleh Səmədov olub. Rayondakı qaynaqların dediyinə görə, Səmədov Rusiyapərəst mövqeyini heç vaxt gizlətməyib, bunu hər fürsətdə ortaya qoyub - Moskvanı mədh etməkdən, hətta Kremlmeyilli mövqeyi ilə seçilən iş adamı hətta İmişli Rayon Ağsaqqallar Şurasının Moskvada ərazi təşkilatını təsis etməkdən çəkinməyib.



Bunların müqabilində onun xüsusilə son illərdə hədsiz varlanması isə başqa bir diqqət çəkən məqamdır. ""Unikal"ın əldə etdiyi məlumata görə, Saleh Səmədovun İmişlidə "Kral Saray" adlı şadlıq sarayı, "Kral" çay evləri şəbəkəsi, uşaq bağçası, çörək sexi, spirt-şirə zavodu, hipermarketi, kolbasa sexi, mal-qara və donuz ferması, eləcə də 20 hektar ərazini əhatə edən istilikxanası var.

Əvvəllər 90 AA 679 nömrəli "Rolls-Royce" ilə hərəkət edən iş adamının paytaxtda da çoxsaylı villaları, market, restoranları və tikinti şirkətinin olduğu deyilir.

Maraqlısı budur ki, 1962-ci ildə anadan olan S.Səmədov ali təhsilini 30 yaşından sonra almağa qərar verib. O, 1997-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunu, 2001-ci ildə isə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını bitirib. Görünür, sonradan ali təhsil almaq qərarı birdən-birə fəhləçilikdən varlanmağa gedən yolda Saleh Səmədovun vəzifə tuta bilməsi üçün əsas şərt olub.

Həqiqətən də orta məktəbi bitirdikdən sonra (1981) İmişli rayon Yol İstehsalat idarəsində fəhlə kimi işləyən Saleh Səmədova çox keçmədən İmişli rayon Rabitə və İşarəvermə stansiyasında anbar müdiri kimi məsul vəzifə həvalə edilir. Bu müddət ərzində müxtəlif qurum və şirkətlərdə direkor, baş direktor işləyən S.Səmədov 2002-ci ildə İmişli rayon "Araz" MMC-ni təsis edir. 2010-2011-ci illərdə İmişli rayon İcra Hakimiyyətində Başçının sosial-iqtisadi məsələlər üzrə müavini, 2011-2013-cü illərdə "Xan-Araz" MMC-də prezident, 2013-2018-ci illərdə Azərbaycan Respublikası Standartlaşdırma, Metrologiya və patent üzrə Dövlət Komitəsi Regional Ərazi idarəsində rəis, 2018-2020-ci illərdə Azərbaycan Metrologiya İnstitutunda baş direktor, 2020-2021-ci illərdə "Azər-S-Test" MMC-də direktor vəzifələrində işləyib.

2024-cü ilin aprel ayının sonlarında İmişli Rayon Ağsaqqallar Şurasının inzibati binasında təşkilatın seçki konfransı keçirilib. İmişli Rayon Ağsaqqallar Şurasının sədri Ramiz Əmirovun istefa təklifi səsə qoyulub və qəbul edilib. Daha sonra İmişli Rayon Ağsaqqallar Şurasının İdarə Heyətinin üzvü Saleh Səmədovun təşkilatın sədri vəzifəsinə namizədliyi irəli sürülüb və o, Şuranın sədri seçilib.

Əmək fəaliyyəti kiçik fasilələrlə az qala tamamən məmurluqda keçən Rusiyapərəst sabiq sədrin yuxarıda sadalanan varidata necə sahibləndiyi sual doğurmaya bilməz və araşdırmaya möhtacdır.

Daha bir diqqət çəkən məqam odur ki, 2024-cü ilin əvvəlində İmişli Rayon Ağsaqqallar Şurasının inzibati binasında Sovet dönəmini simvolizə edən əşyalar olmayıb. Saleh Səmədovun sədr seçilməsindən sonra isə onun və digərlərinin otağında SSRİ liderlərindən biri olan İosif Stalinin büstü və SSRİ bayraqları nəzərə çarpır. Bu da onun Qələbə günü ilə bağlı çıxışında sinəsinə "Georgi lenti"ni heç də təsadüfən taxmadığından xəbər verir.

Həmçinin araşdırmamız zamanı məlum olub ki, Sarıxanlı kəndində 9 May Qələbə günü tədbiri zamanı Böyük Vətən müharibəsi xatirə kompleksinin üzərində qaldırılan SSRİ bayrağından orada çox sayda olub. Bayraqlar isə S.Səmədovun açıqladığı kimi hansısa yerdən alınmayıb, əksinə, birbaşa onun göstərişi ilə tikilib.

Saleh Səmədovun qardaşları ilə bağlı bəzi maraqlı faktlar da üzə çıxıb. Belə ki, sabiq sədrin qardaşı Atababa Səmədov 2018-ci ildə dələduzluğa görə həbs edilib. A.Səmədov ayrı-ayrı şəxslərə müxtəlif vaxtlarda ümumi məbləği 320 min ABŞ dolları miqdarında pul atıb. O, aldatdığı şəxslərə aldığı pulların müqabilində tikinti materialları gətirəcəyinə söz verib. Daha sonra onun barəsində həbs qətimkan tədbiri seçilib.

Saleh Səmədovun kiçik qardaşı Sahib Səmədov isə işində yol verdiyi nöqsanlara görə işdən çıxarılmışdı.

Yazının əvvəlinə qayıtsaq, İmişlidəki hadisə Azərbaycanda müəyyən post tutan şəxslərin rusperəst mövqeyi barədə aylar öncəki müzakirələri yenidən aktuallaşdırır. Görünür, bir sıra media orqanları, ekspertlər, siyasilərin Azərbaycanda rus casus şəbəkəsinin olması barədə iddiaları gündəmə gətirərkən bir o qədər də haqsız deyildilər. Əlbəttə, Saleh Səmədovun imza atdığı anormal hadisəyə bu şəbəkə müstəvisində baxmamaq da olar, bəlkə də, onun hərəkəti siyasi savadsızlıqdan, yaxud sadəlövh sovet nostalgiyasından qaynaqlanır. Hər bir halda məlum olay fonunda rusiyapərəstlik mövzusu ətrafında dərindən düşünmək lazımdır.

Və sonda: bir daha təsdiqlənir ki, ömrü məmurluqda keçənlərin böyük sərvətə necə yiyələndiklərini araşdırmaq vacibdir; ola bilsin, belədə ortaya yalnız korrupsiya amili deyil, başqa ilginc detallar da çıxacaq...

***Sənan Mirzə***

18_27 IYUI-QARA.qxd 5/15/2025 11:57 PM Page 10



# “Hafka”nın diriliş hazırlığı...

## Qalmaqallı iş adamı “sönən ulduzunu” yenidən parlada biləcəkmi?

***2022-ci ilin yanvarında yayılan məlumat bir çoxları üçün həm gözlənilən, həm də sürpriz oldu. Bu məlumatda deyilirdi ki, cəmiyyətin və medianın gündəminə daha çox qalmaqallı xəbərlərlə gələn məşhur iş adamı, “Bakı” futbol klubunun keçmiş prezidenti Hafiz Məmmədov Dövlət Vergi Xidmətinin Yasamal istintaq şöbəsində saxlanılır.***

Məlumatda o da bildirilirdi ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi cinayətlərinin İbtidai Araşdırılması Baş İdarəsində iş adamı Məmmədov Hafiz Məcid oğlunun bilavasitə faktiki rəhbərliyi həyata keçirdiyi müəssisələr üzrə yaranmış külli miqdarda vergi və məcburi dövlət sosial sığorta haqlarının ödəmək-



dən yayındırılması faktları üzrə cinayət işi başlanıb. Başlanmış cinayət işi çərçivəsində Hafiz Məmmədov istintaqa gəlməkdən boyun qaçırdığından, onun barəsində ittiham elan edilməsi üçün şəxsin tutulması ilə bağlı axtarış haqqında qərar qəbul edilib. Ardınca isə Yasamal rayon məhkəməsinin qərarı ilə Hafiz Məmmədov barəsində həbs qətimkan tədbiri seçilib.

Bu xəbərin yayılmasının ardınca “Hafka” ləqəbi ilə tanınan iş adamının vəkillərindən biri İsmayıl Kəngərli bildirmişdi ki, hazırda Məmmədovun vergi və sosial ödənişlər üzrə borcu 1,5 milyon manatdır. Sitat: “Dövlət Vergi Xidməti Hafiz Məmmədovdan borcun tam ödənilməsini tələb edir. Lakin məhkəmənin mövqeyi ondan ibarətdir ki, iş adamı borcunun yarısını ödədiyi halda ev dustaqlığına buraxıla bilər”.

Görünür, vəkilin dilə gətirdiyi ödəmə məsələsi gerçəkləşdiyindən çox keçmədi ki, “Hafka” həqiqətən də ev dustaqlığına buraxıldı. Lakin həmin vaxtdan Hafiz Məmmədov gözə dəymir. Sonuncu dəfə o, cari ilin fevralında, üstəlik, uzun müddətdən sonra görüntülənmişdi. Həmin vaxt “Publika.az” yazırdı ki, qapalı həyata üstünlük verən “Hafka”nın yeni görüntülərini iş adamı Əli Süleymanov izləyiciləri ilə bölüşüb. ”Bu gün dahi insan, iş adamı, ”Lans” və ”Bakı” komandalarının keçmiş prezidenti, sadiq dost Hafiz Məmmədovla (Hafka) birlikdə idik”, - o, paylaşımında bildirmişdi. Lakin sonradan “Hafka” ilə bağlı yeni xəbərlər çıxmadı. Belə başa düşmək olardı, 2015-ci ildən sonra iş həyatında uğursuzluq yaşamağa başlayan, elə həmin vaxtdan sahib olduğu şirkətləri itirən, böyük pay sahibinə çevrildiyi Fransanın ”Lans” futbol klubu da əlindən çıxan, daha öncə nəzarətindəki ”Bakı” klubu da fəaliyyətini dayandırıb. Hətta borclar səbəbindən məhkəmə qərarı ilə klubun Biləcəri qəsəbəsindəki böyük bazası əlindən alınıb.

Biznesmen Əli Süleymanovun öz paylaşımında onu “dahi insan” (!) kimi təqdim etməsinə anlam verə bilmədik, “Hafka” hansı xariqülada məziyyətlərlə dahi ünvanı alıb, bilmirik, bildiyimiz iki şey var:

Bir, dahilik - insan zəkasının, istedadının ən yüksək zirvəsidir; belə çıxır ki, çox qısa zaman içərisində əlindəki bütün maliyyə gücünü itirmək, sonda yalnız borc qalmaqalları ilə gündəmə gəlmək də bir növ dahilik əlamətidir.

İki, “Hafka” hansı xariqülada məziyyətlərlə öz dostundan dühа ünvanı alıb bilmirik, ancaq onu bilirik ki, hazırda Hafiz Məmmədov əvvəlki ehtişamından çox uzaqdır və bu bir az da onun iddiaları ilə imkanlarının üst-üstə düşməməsindən qaynaqlanır. O, müflisləşmiş əksər iş adamları (məsələn, “AST Telman” ləqəbli Telman İsmayılov!) kimi bədxərcliyi ilə diqqət çəkirdi. Qiymətli hədiyyələr verməyi xoşlayan “Hafka”, bir neçə il öncə ondan müsahibə alan fransız jurnalistə bahalı saat verməsi ilə gündəmə gəlmişdi.

Ümumiyyətlə, Hafiz Məmmədovun iflas etməsinin səbəbinə gəlincə, bunu daha çox onun zamanında mövcud şəraiti düzgün qiymətləndirməməsi ilə əlaqələndirirlər. “Hafka”nı batıran digər səbəblərdən biri də, düzgün şərik seçməməsi göstərilir. İddialara görə, H.Məmmədovun iflas etməsinə sabiq nəqliyyat naziri Ziya Məmmədovla şərikliyinin pozulmasının da böyük rolu var. Hətta vəziyyət o yerə çatdı ki, “Hafka” dəfələrlə məhkəməlik oldu, bir sıra mülkləri də əlindən alındı. Məsələn, Mərkəzi Bankın ona qarşı məhkəmə iddiasına səbəb vaxtilə “Bank of Azerbaijan”a ayrılmış kreditlər idi. Söhbət üç kredit müqaviləsi üzrə ümumilikdə 55 milyonluq kredit borcundan gedirdi. Bunun da 50 milyon manatı əsas borc, 5 milyonu faizlər idi. Bu kreditlər 2013-cü ilin aprel, iyun və iyul aylarında ayrılıb. Nəticədə bu borc müsadirə edilən mülklərlə ödənildi, onların arasında “Ramada Hotel & Suites Baku” da vardı.

Lüks həyat tərzi ilə tez-tez gündəmə gələn “Hafka”nın çöküşündə onun İspaniyanın “Atletiko”, Fransanın “Lans” klublarına sponsor olması da rol oynayıb. Bu sponsorluqların səbəbi indiyədək bəlli deyil, məlum olan bircə odur ki, Hafiz Məmmədovun dəxilsiz və anlamsız şəkildə “böyük oynamağa” başlaması iflas həddinə gətirdi.

Bəzi iddialara görə, qalmaqallı iş adamı “sönən ulduzunu” yenidən parlatmağın yollarını axtarır. Onun bunu bacarıb-bacarmayacağı sual altındadır, lakin vurğulamaq yerinə düşər: bir insanın yıxıldığı yerdən qalxması üçün dahilik tələb olunmasa da, hər halda müəyyən iradə, istedad və intellekt, ən əsası isə səhvlərindən nəticə çıxarmaq bacarığı tələb olunur...

**Toğrul Əliyev**



# Sosial müavinətlər nə vaxt artırılacaq? - Deputat açıqladı

***”Cənab Prezident tərəfindən imzalanmış 23 dekabr 2024-cü il tarixli sərəncamda Nazirlər Kabinetinə 3 ay müddətində sosial müavinətlər, təqaüdlərin artırılması ilə bağlı təkliflərin hazırlanması və dövlət başçısına təqdim edilməsi tapşırılmışdı”.***

Bunu ”Unikal”a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, həmin müddət artıq mart ayının ikinci yarısı başa çatıb: ”Sosial paketin növbəti elementi sosial müavinətlərin və təqaüdlərin artırılmasının nəzərdə tutulmasıdır. Sosial paket bütövlükdə 3 milyon vətəndaşımızı əhatə edəcək. Bu istiqamətə əlavə olaraq 1,6 milyard manat vəsait ayırlacaq. Bu baxımdan, sosial paketin hər bir elementinin ayrı-ayrılıqda fiskal qiymətləndirilməsi həyata keçirilir, daha sonra bu istiqamətdə qərarlar verilir. 23 dekabr tarixli sərəncamda məhz sosial müavinətlər və təqaüdlərin artırılması ilə bağlı təkliflərin hazırlanması nəzərdə tutulub. Gözləntimiz ondan ibarətdir ki, bu istiqamətdə maliyyə qiymətləndirilməsi başa çatdıqdan sonra sosial müavinətlər və təqaüdlərin artırılması ilə bağlı qərarın verilməsi mümkün olacaq”.

**Anar Kəlbiyev**

# STM-də yeni təyinat oldu



***Çıraqov Elnur Vaqif oğlu Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin üzvü təyin edilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev mayın 13-də bununla bağlı Sərəncam imzalayıb.

Qeyd edək ki, Elnur Çıraqov 2015-2019-cu illərdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyində çalışıb. 2019-cu ildən etibarən Sosial Tədqiqatlar Mərkəzində Sosial-iqtisadi təhlil departamentində aparıcı məsləhətçi, 2022-ci ilin fevral ayından baş məsləhətçi, 2022-ci ilin iyul ayından isə İctimai rəyin öyrənilməsi departamentinin müdiri vəzifələrində fəaliyyət göstərib.

# Vüqar Səfərli ilə həbs edilən şirkət rəhbəri azadlığa buraxıldı



***Ləğv edilmiş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) sabiq direktoru Vüqar Səfərli ilə birgə məhkum edilmiş “Portos” MMC-nin direktoru Nadir Məmmədov vaxtından əvvəl azadlığa buraxılıb.***

”Unikal” ”Qafqazinfo”ya istinadən xəbər verir ki, yerli məhkəmə məhkumun xəstəliyi ilə bağlı belə qərar qəbul edib.

Qərara əsasən, onun qalan 1 il 2 aylıq həbs cəzası şərti hesab edilib, cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

Qeyd edək ki, Vüqar Səfərli və Nadir Məmmədov 2021-ci ilin yanvarında həbs edilib. Vəzifə cinayətlərində təqsirli bilinən V.Səfərli yekun olaraq 10 il 6 ay, N.Məmmədov 5 il 6 ay azadlıqdan məhrum edilib. Bu iş üzrə yalnız adları çəkilən şəxslər həbslə cəzalandırılıb, digərlərinə şərti cəza verilib.

18_27 IYUI-QARA.qxd 5/15/2025 11:57 PM Page 11






# Ali məktəblərə qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı başladı

***Ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı başlanıb.***

"Unikal" xəbər verir ki, subbakalavrlar Dövlət İmtahan Mərkəzinin internet saytının ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan (kabineti olmayanlar) sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə 10 iyul 2025-ci il tarixinədək DİM-in müvafiq internet səhifəsinə daxil olub "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər.

Şəxsi kabineti olanlar qeydiyyat sisteminə daxil olarkən təyin etdikləri parol qısa və zəifdirsə, müasir təhlükəsizlik tələblərinə cavab vermirsə, sistem avtomatik olaraq onu yeniləməyi tələb edir. Qeydiyyat sisteminə daxil olarkən parolun dəyişdirilməsi ilə bağlı belə bildiriş aldıqda orada verilən tələblərə əsasən parolunuzu yeniləməlisiniz. Qeyd edək ki, parolunuz 12 - 20 simvol uzunluğunda (ən az bir rəqəm, bir latın hərfi və ""!@#$&_"" kimi xüsusi simvoldan ibarət) olmalıdır. Şəxsi kabinetinizin istifadəçi adı və parolu məxfi saxlanılmalı və kənar şəxslərlə paylaşılmamalıdır.

Sistemə daxil olarkən subbakalavra aid təhsil məlumatları "Tələbə-Məzun" dövlət elektron məlumat bazasından avtomatik əldə olunur.

Bu məlumatları tam olmayan subbakalavrlar elektron ərizəsinə daxil olub "Yadda saxla" düyməsini basdıqdan sonra bitirdiyi orta ixtisas təhsili müəssisəsinə avtomatik elektron sorğu göndəriləcək. Tələb olunan məlumatlar orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirildikdən sonra subbakalavrın şəxsi kabinetində qeyd etdiyi nömrəyə "sms" xəbərdarlıq gələcək. Xəbərdarlıq gəldikdən sonra subbakalavrlar elektron ərizəni təsdiq etməlidirlər. Təhsil müəssisələri sistemə daxil edilmiş bu məlumatların həqiqiliyinə görə məsuliyyət daşıyır.

Xatırladaq ki, "Şəxsi kabinet"ində qeyd olunan mobil telefon nömrəsi subbakalavrın özünə məxsus deyilsə və ya nömrə dəyişilibsə, həmin subbakalavr "Şəxsi kabinet"dəki "Əlaqə məlumatları" bölməsində mobil telefon nömrəsinə düzəliş etməlidir.

Qeyd olunan tarixlərdə ərizəsini təsdiq etməyən subbakalavrlar müsabiqəyə buraxılmayacaqlar.

Müsabiqədə iştirak ödənişsizdir.

Bitirdikləri ixtisasa müvafiq xüsusi qabiliyyət tələb edən ixtisaslar (XQTİ-lər) üzrə ali təhsil almaq istəyən subbakalavrlar 30 may saat 23:59-dək ərizələrini təsdiq etməlidirlər. Çünki qabiliyyət imtahanlarında iştirak etmək üçün qeydiyyat yaxın günlərdə başlayacaq və mayın 30-dək davam edəcək. Subbakalavrlar qeyd olunan tarixədək müvafiq komissiya üzrə də qeydiyyatdan keçib qabiliyyət imtahanında iştirak etməlidirlər. Qabiliyyət imtahanlarında iştirak ödənişlidir. Qabiliyyət imtahanları haqqında daha ətraflı məlumatı "Abituriyent" jurnalının yaxın günlərdə çap olunacaq xüsusi buraxılışlarından əldə etmək mümkündür.

XQTİ-ləri yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və "məqbul" qiymət alan subbakalavrlar seçə bilərlər.

1995-2007-ci il təvəllüdlü (30.04.2007-ci il tarixinədək anadan olmuş) 30 yaşınadək olan kişi cinsli subbakalavrların elektron ərizələrinin təsdiqi üçün onların ya müddətli həqiqi hərbi xidmət keçməsi, ya çağırışdan möhlət hüququnun olması, ya çağırışdan azad edilməsi və ya müddətli həqiqi hərbi xidmətə çağırılmama və ya müvəqqəti çağırılmaması barədə məlumat Azərbay-can Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) vahid elektron informasiya sistemində əks olunmalıdır.

30.04.2007-ci il tarixindən sonra doğulmuş və ya 30 yaşı tamam olmuş subbakalavrların elektron ərizələri SHXÇDX-in vahid elektron informasiya sisteminə sorğu verilmədən təsdiq edilir.

Hərbi qeydiyyatın aparılması Azərbaycanın SHXÇDX tərəfindən təsdiq edilən qaydalarla tənzimlənir.

Qeyd edək ki, qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrlar cari ildə imtahan verərək ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən abituriyentlərlə eyni vaxtda (tarixlər elan olunacaq) ixtisas seçimində (müsabiqədə) iştirak edəcəklər.

# Ziya Məmmədovun oğlunun şirkətinə rəhbərlik etmiş biznesmenə şok

## Londonda ötən ili 2 milyon manatlıq xalis zərərlə başa vuran "Alma" restoranının sahibi kimdir?

***Böyük Britaniyanın paytaxtı Londonda fəaliyyət göstərən "Alma" kafesi növbəti maliyyə hesabatını açıqlayıb.***

Azərbaycan əsilli iş adamı Bəxtiyar Sadıqlıya məxsus olan "Alma Cafe LTD" şirkətinin 2024-cü ildə xalis zərəri 881 min 106 funt sterlinq (2 milyon manat) olub.

Şirkətin zərəri son bir ildə 179 min funt sterlinq artıb.

Məlumat üçün onu da bildirək ki, Bəxtiyar Sadıqlı 2013-2016-cı illərdə hazırda səhmlərinin 75%-i sabiq nəqliyyat naziri Ziya Məmmədovun oğlu Anar Məmmədova məxsus olan və KFC restoranlar şəbəkəsini idarə edən "B.J.R. Foods Limited" şirkətinə də rəhbərlik edib ("Yeni avaz").

"Unikal" qəzetinin araşdırmasına görə, B.Sadıqlı adı çəkilən şirkətə 2013-2016-cı illərdə rəhbərlik edib. A.Məmmədov isə bu şirkətdəki 75%-lik payı 23 iyul 2021-ci il tarixində satın alıb.

O da ilgincdir ki, məhz Anar Məmmədov şirkətin səhmlərinə sahib olduqdan sonra "B.J.R. Foods Limited" zərərlə işləməyə başlayıb. Belə ki, "B.J.R. Foods Limited" şirkəti 2021-ci ili 3 milyon 244 min 762 funt-sterlinq mənfəətlə başa vurduğu halda, 2022-ci ildə xalis zərər edib: 1 milyon 182 min 13 funt-sterlinq. Növbəti il də mənzərə dəyişməyib: şirkət 2023-cü ili 629 min 446 funt-sterlinq (1,4 milyon manat) zərərlə başa vurub.

Bəxtiyar Sadıqlıya gəlincə, o, 20 ildən artıqdır ki, Londonda yaşayır, əvvəllər maliyyə sahəsində çalışıb və sonda İngiltərə paytaxtında "Alma" adlı 6 kafe açıb. Kafelərə bu adı verməsinin səbəbini o, ötən ilki müsahibəsində belə açıqlayıb: "Əslində, "Alma" adını kafe üçün alman dostum məsləhət görüb. O, memardır və onunla söhbətimizdə mənə demişdi ki, "alma" sözü demək olar hər dildə var. Azərbaycan dilində bu söz meyvə deməkdir. İspan dilində ürək, istilik mənasını verir. Həm də hər dildə asanlıqla tələffüz olunan bir sözdür. Üstəlik, qızımın da iki adı var - Fərəh Alma, bu da adın mənasına əlavə dərinlik qatır".

İş adamı kafedə 100-dən çox işçinin çalışdığını və onlardan təxminən 10 faizinin azərbaycanlı olduğunu da demişdi: "Kafemizin indiki "Kings Cross" şöbəsinin meneceri azərbaycanlıdır. Qardaşım Həsən Sadıqlı isə bütün "Alma" kafelərində "head of coffee"dir. Yəni, kofe ilə əlaqəli bütün fəaliyyətlərə cavabdeh olan şəxsdir. Hazırkı uniformalarımızda Azərbaycan bayrağı var və "Bakıdan sevgilərlə" yazılıb. Bu yazılar menyularımızda da əks olunub... Hətta kofe blendlərimizə də Zaqatala, Bakı, Quba və Qarabağ kimi Azərbaycan adları vermişik. Mən özüm Zaqataladanam. Müştərilərimiz tez-tez soruşurlar ki, bu adlar nə deməkdir. Belə detallarla həm britaniyalılara mədəniyyətimizi tanıdırıq, həm də insanlarda maraq oyadırıq. Bir neçə meyvə suyuna Bakı ilə bağlı adlar vermişik. Məsələn, "Baku Breeze" kimi. Məqsədimiz Azərbaycanın tanıdılması və Azərbaycan brendinin təbliğidir".

Gündəlik olaraq "Alma"ya 2000-dən çox müştəri qəbul etdiklərini deyən B.Sadıqlı onların sayının ildən-ilə artdığını da vurğulamışdı. Sitat: "Gələcəkdə "Alma" brendini Londonda daha geniş yaymaq istəyirik. Bir il yarım əvvəl "Sushi Shop" açdıq. Hazırda bu layihənin uğurunu dəyərləndiririk və uğurlu olarsa, bu konsepti genişləndirməyi planlaşdırırıq. Bundan əlavə, Azərbaycanla bağlı ad daşıyan yeni bir brend yaratmağı planlaşdırırıq".



2023-cü ildə Londonda işgüzar səfərdə olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Bəxtiyar Sadıqlıya məxsus "Alma - Primrose Hill" kafesində olub. Kafenin fəaliyyəti ilə tanışlıq çərçivəsində Sadıqlı ilə xarici ölkədə biznesin qurulması və inkişafına, sahibkarın gələcək planlarına dair fikir mübadiləsi aparılıb.

Onu da deyək ki, iş adamının 2024-cü ildə mətbuata verdiyi müsahibədə "Alma" kafesi ilə bağlı işlərin qaydasında getdiyini söyləməsinə baxmayaraq, bu restoranın ötən ili ciddi zərərlə başa vurması maraq doğurur.

***Toğrul Əliyev***

18_27 IYUl-QARA.qxd 5/15/2025 11:57 PM Page 12



## 5.3.13. informasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# İKT sahəsində daha bir yenilik

### İRİA: "Kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin ilkin mərhələdə mygov platformasında istifadəçilər üçün əlçatan edilməsi nəzərdə tutulub"



***Azərbaycanda kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sistemi yaradılır. Azərbaycan hökuməti kommunal xidmətlərin idarə olunmasında rəqəmsal transformasiyanın həyata keçirilməsi istiqamətində mühüm addım atıb.***

"Kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin yaradılması və aidiyyəti sistemlərin inteqrasiyası üzrə 2025-ci il üçün Yol Xəritəsi" təsdiqlənib. Yol xəritəsinə görə, cari ildə kommunal qurumlar üzrə vahid abunəçi kodu mexanizminin yaradılması və Kommunal Xidmətlər Vahid İnformasiya Sisteminin formalaşdırılması ilə bağlı konseptual sənəd hazırlanıb. 2025-ci ilin sonuna qədər layihə ilə bağlı əsas mərhələlərin tamamlanması nəzərdə tutulur. Sistemin yaradılmasına rəhbərliyi İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi həyata keçirir.

"Unikal" qəzeti kommunal qurumlar üzrə vahid abunəçi kodu mexanizminin üstünlüklərini araşdırıb. İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) "Unikal" qəzetinin sorğusuna cavabda bildirilib ki, vahid abunəçi kodu mexanizminin bir sıra üstünlükləri var. Qurumdan bildirilib ki, Kommunal xidmətlərlə bağlı Vahid İnformasiya Sisteminin ilkin mərhələdə my.gov platformasında istifadəçilər üçün əlçatan edilməsi nəzərdə tutulub. Bu isə kommunal xidmətlər üzrə vətəndaş-məmur təmaslarını minimuma endirəcək və xidmətlərin göstərilməsində şəffaflığı artıracaq: ""2018-ci il 12 sentyabr tarixli, 263 nömrəli Prezident Fərmanı ilə təsdiqlənmiş "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"na əsasən, Elektron Hökumət İnformasiya Sisteminin altsistemi kimi yaradılan Kommunal Xidmətlər üzrə Vahid İnformasiya Sistemi (KXVIS) ölkədə kommunal sahədə idarəetmənin effektiv təşkili məqsədi daşıyır. Sistem, kommunal xidmətlərlə bağlı zəruri məlumatların toplanması, emalı, vahid platformada birləşdirilməsi, bu məlumatlar əsasında monitorinqlərin və analitik təhlillərin aparılması, proqnozların hazırlanması və vətəndaşlara mərkəzləşdirilmiş elektron xidmətlərin göstərilməsi üçün əsas infrastruktur olacaq. Bu sistem vasitəsilə kommunal xidmət sahəsində həm dövlətin idarəetmə funksiyası güclənəcək, həm də xidmət keyfiyyəti və şəffaflıq əhəmiyyətli dərəcədə artacaq.

"KXVIS vətəndaşlar üçün bir sıra yenilik və rahatlıq vəd edir. Ən başlıcası, bu sistem vasitəsilə istifadəçilər vahid portal üzərindən elektrik, qaz, su, istilik və digər kommunal xidmətlər üzrə borclarını, sərfiyyat göstəricilərini və tarifləri izləyə biləcəklər. Sistemin təqdim edəcəyi e-xidmətlər sayəsində vətəndaşlar onlayn ödəniş, elektron müraciət, xəbərdarlıqların alınması, avtomatik ödəniş planlaşdırılması və rəqəmsal arxivdən istifadə kimi imkanlara malik olacaqlar. İlkin mərhələdə bütün xidmətlərin mygov platformasında istifadəçilər üçün əlçatan edilməsi nəzərdə tutulub. Bu isə kommunal xidmətlər üzrə vətəndaş-məmur təmaslarını minimuma endirəcək və xidmətlərin göstərilməsində şəffaflığı artıracaq", deyə sorğumuza cavabda bildirilib.

İRİA-dan verilən məlumatda o da qeyd olunub ki, hazırkı Yol Xəritəsinə əsasən sistemə aşağıdakı kommunal xidmət növləri daxil edilib: elektrik enerjisi (Azərişıq), qaz təchizatı (Azəriqaz), su və kanalizasiya (Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi) və istilik təchizatı (Azəristiliktəchizat). Bu xidmətlər üzrə məlumatlar real vaxt rejimində mərkəzləşdirilmiş sistemə ötürüləcək və vətəndaşlar bu məlumatlara rahat çıxış əldə edəcəklər. Gələcək mərhələlərdə isə xidmət spektrinin daha da genişləndirilməsi nəzərdə tutulur.

İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İdarə Heyətinin sədri Elvin Abbasovun sözlərinə görə, yeni sistem abonentlərə kommunal xidmətlərlə bağlı məlumatları vahid platformadan əldə etməyə və ödənişləri daha rahat həyata keçirməyə imkan verəcək. Bu sistem vasitəsilə istifadəçilər elektrik, qaz, su, istilik və digər kommunal xidmətlər üzrə borclarını, sərfiyyat göstəricilərini və tarifləri izləyə biləcəklər.

"Bu sistemlə məlumat mübadiləsi təmin ediləcək, abonentlərə dəqiq və operativ xidmət göstəriləcək. Xidmətlərin 50 faizi və bildirişlər "my.gov" üzərindən təqdim ediləcək. Vahid İnformasiya Sistemi ilkin mərhələdə Bakı və böyük şəhərlərdə pilot layihə şəklində tətbiq olunacaq. İnfrastruktur və texnoloji imkanlar formalaşdıqdan sonra sistemin mərhələli şəkildə bütün regionlarda tətbiqi planlaşdırılır", deyə E. Abbasov bildirib.

Onun sözlərinə görə, hazırda bəzən eyni ünvanlarda kommunal xidmətlərdə fərqli ünvanlar göstərilir. Bu sistem belə problemi də kökündən həll edəcək: " Bütün hallarda sistemin tətbiqi ilə vətəndaşlarla qurumların münasibətlərinin sağlamlaşacağı gözlənir".

Məlumat üçün bildirək ki, layihənin icrasını İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi həyata keçirir. Bu il yeniliyin tətbiqi gözlənilir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




## Şuşada mətbuat muzeyinin yaradılması təklif olunub

***Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada mətbuat muzeyinin yaradılması təklif olunub.***

Bu təkliflə Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid Azərbaycan Milli Mətbuatının 150 illik yubileyinə həsr olunan "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda keçirilən beynəlxalq konfransın açılış mərasimində çıxış edib.

Onun sözlərinə görə, Şuşada belə muzeyin yaradılması böyük marağa səbəb ola bilər: "Həmin muzeydə Azərbaycan mətbuatının qədim dövrdən bu günədək keçdiyi yolun əks olunması Şuşaya səfər edəcək əcnəbi turistlər üçün də maraqlı olar".

## BDU-nun "Media problemləri" jurnalı nəşrə başlayıb



***Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsinin təsis etdiyi "Media problemləri" jurnalının təqdimatı keçirilib.***

Nəşr Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfransın açılış mərasimində təqdim olunub.

BDU-nun Multimedia və elektron kommunikasiya kafedrasının müdiri professor Qulu Məhərrəmli bildirib ki, "Media problemləri" jurnalistikanın elmi aspekti sahəsində atılan ilk addımlardan biridir: "Jurnalda təkcə Azərbaycanın deyil, Türkiyədən də üç elm adamının məqaləsi nəşr olunub".

## MEDİA-nın İcraçı direktorunun müavini gənc jurnalistlərə çağırış edib

***Medianın İnkişafı Agentliyinin (MEDİA) İcraçı direktorunun müavini Natiq Məmmədli gənc jurnalistlərə çağırış edərək həqiqəti çatdırmaq üçün hər zaman mübarizə aparmalarını arzulayıb.***



O, Azərbaycan milli mətbuatının 150 illik yubileyinə həsr olunmuş "Rəqəmsal dövrdə media və kommunikasiya fəaliyyəti" mövzusunda beynəlxalq konfransın açılış mərasimində deyib ki, Azərbaycan jurnalistikası uzun və çətin yoldan keçib:

"Əgər insanlar medianın papirusdan kompütерə təkamülünü bacarıbsa, bundan sonra da ən yüksək səviyyədə inkişafına nail ola bilərik. Jurnalist olmaq istəyən və gənc jurnalistlərə demək istəyirəm ki, rəqəmsal dövrdə mediada həqiqəti yaymaq, dezinformasiyadan yayınmaq sizlər üçün əsas prioritet olsun".

18_27 IYUI-QARA.qxd 5/15/2025 11:57 PM Page 13



## Azad edilən ərazilərdə 43 mindən çox insan məskunlaşıb



***Azad edilən ərazilərdə 43 min 144 nəfər məskunlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə Dövlət Statistika Komitəsi məlumat yayıb.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən 01.05.2025-ci il tarixədək işğaldan azad edilmiş ərazilərin bərpa olunmuş yaşayış məntəqələrinə 13 min 745 nəfərdən ibarət 3 min 464 ailənin qayıdışı təmin edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına görə, həmin tarixə işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işləri və digər peşə fəaliyyəti ilə bağlı müvəqqəti yaşayan şəxslərin və onların ailə üzvlərinin sayı isə 28 min 249 nəfər təşkil edib.

Xankəndi şəhərində yerləşən Qarabağ Universitetində təhsil alan 1 150 nəfər tələbə də nəzərə alınmaqla işğaldan azad edilmiş ərazilərdə məskunlaşmış əhalinin ümumi sayı 43 min 144 nəfər təşkil edib.

## Ölkədə 23 mindən çox yeni iş yeri açılıb



***2025-ci ilin birinci rübü ərzində Azərbaycanda 23,4 min yeni iş yerləri açılıb.***

Dövlət Statistika Komitəsindən "Unikal"a verilən məlumata görə, bu dövrdə yaradılmış iş yerlərinin 90,6 faizi qeyri-dövlət sektorunda açılıb.

Məlumata görə, yeni açılmış iş yerlərinin 74,4 faizi Bakı şəhərinin, 0,9 faizi Naxçıvan Muxtar Respublikasının, 24,7 faizi digər regionların, o cümlədən 11,4 faizi Abşeron-Xızı, 2,4 faizi Quba-Xaçmaz, 2,2 faizi Qarabağ, 1,7 faizi LənkəranAstara, 1,5 faizi Gəncə-Daşkəsən, 1,3 faizi Şəki-Zaqatala, 1,1 faizi Şirvan-Salyan, 0,7 faizi Mil-Muğan, 0,6 faizi Dağlıq Şirvan, 0,6 faizi Qazax-Tovuz, 0,6 faizi Mərkəzi Aran və 0,6 faizi Şərqi Zəngəzur iqtisadi rayonlarının payına düşüb.

Yeni açılmış iş yerlərinin 11,2 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 87,8 faizi mövcud müəssisə və təşkilatlarda, 0,5 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 0,5 faizi isə digər tədbirlər üzrə yaradılıb.

## Kreditlərlə bağlı statistika açıqlandı

***Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, cari ilin aprel ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,7 faiz artaraq, milli valyuta ekvivalentində 29 milyard 679,4 milyon manat təşkil edib.***

Dövlət Statistika Komitəsindən "Unikal"a bildirilib ki, ümumi kredit portfelinin 24 milyard 768,2 milyon manatı və ya 83,5 faizi uzunmüddətli kreditlərin payına düşüb.

Kreditlərin 93,9 faizi banklar, 6,1 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği il ərzində 2,3 faiz artaraq 481,6 milyon manat olub və ümumi kredit portfelinin 1,6 faizini təşkil edib.

### ELAN

FHN, Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti tərəfindən Zeynalov Natiq Mütəllim oğluna verilmiş AA 02374 nömrəli gəmi bileti itdiyi üçün etibarsız sayılır.

## "Aztelekom" MMC-nin yenidən təşkili qeydə alınıb

***"Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi"nin (AZCON) tərkibində fəaliyyət göstərən "Aztelekom" MMC "Bakı Telefon Rabitəsi" MMC, "AzEvroTel" MMC, Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi "Aztelekom" İstehsalat Birliyinin Beynəlxalq Avtomat Telefon Stansiyası, Gəncə Telekommunikasiya İdarəsi, "Azərrabitəlayihə" MMC və Sumqayıt Telekommunikasiya Qovşağının ona qoşulması nəticəsində yenidən təşkil edilib.***

"Unikal" xəbər verir ki, yenidən təşkil edilmiş qurum "Aztelekom" MMC yuxarıda adıçəkilən təşkilatların hüquqi varisi elan edilib və təsisçisi AZCON müəyyən edilib.




Vahid idarəetmə mərkəzinin yaradılması inzibati proseslərin sadələşdirilməsinə, resurslardan istifadə səmərəliliyinin artırılmasına və dövlət vəsaitləri də daxil olmaqla kapital və əməliyyat xərclərinə daha çox qənaət edilməsinə imkan verəcək. Yenidən təşkilin məqsədi investisiyaların idarə olunmasının, yüksək potensiala malik kadrların cəlbinin, rəqəmsal inkişafı təmin edən layihələrin icrasının vahid mərkəzdən aparılmasıdır.

Yenidən təşkil təkrarlanan prosesləri aradan qaldıracaq, əməliyyatların daha çevik olmasına və qərarvermə prosesinin sadələşdirilməsinə zəmin yaradacaq.

"Aztelekom" MMC-nin əsas prioritetlərindən biri də strateji məqsədlərin daha yaxşı əlaqələndirilməsinə və uyğunlaşdırılmasına imkan verən idarəetmə mexanizminin yaradılmasıdır. Vahid idarəetmə çərçivəsində fəaliyyət göstərməklə şirkət innovasiyaları təşviq edən əməkdaşlıq mühitini də inkişaf etdirəcək.

İdarəetmənin yenidən təşkili alt təşkilatlarda mövcud qoşulma proseslərinin optimallaşdırılması, müştəri məmnuniyyəti və rəqəmsal əlçatanlığın da artırılması ilə nəticələnəcək. Yenidən təşkilin əsas məqsədlərindən biri də müştərilərə təqdim edilən xidmət səviyyəsi və keyfiyyətinin yüksəldilməsidir.

Qeyd edək ki, uğurla yekunlaşmış "Onlayn Azərbaycan" meqalayihəsinin əsas operatoru olan "Aztelekom" MMC genişzolaqlı və mobil şəbəkə təhlilləri üzrə qlobal şirkət "Ookla" tərəfindən "Ən sürətli Sabit Şəbəkə üzrə Speedtest Mükafatı" (Speedtest Award for Fastest Fixed Network) və rəqəmsal transformasiya məsələləri üzrə 45 illik beynəlxalq təcrübəyə sahib olan nüfuzlu "İDATE" şirkəti tərəfindən "Ev Təsərrüfatlarının Genişzolaqlı İnternetə Qoşulmasının İnkişafı ilə Bağlı Ən Yaxşı Təcrübə" (Best Practice of Home Broadband Development Award) mükafatlarına layiq görülüb. Hər iki mükafat sabit şəbəkə internet provayderinə ölkə tarixində ilk dəfə olaraq təqdim edilib.

## 100 mindən çox əhali keyfiyyətli su ilə təmin olunacaq

***"Ceyranbatan-Abşeron-Balaxanı-Ramana-Zirə-Pirallahı magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi" ilə bağlı işlər davam etdirilir.***

"Unikal" xəbər verir ki, Bakı şəhərinin, xüsusilə Abşeron yarımadasının su təchizatını yaxşılaşdırmaq məqsədilə həyata keçirilən mühüm infrastruktur layihələrindən biri də "Ceyranbatan-Abşeron-Balaxanı-Ramana-Zirə-Pirallahı magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi" layihəsidir.

Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksindən layihə üzrə yeni magistral su xəttinin inşasına Tikilməkdə Olan Obyektlərin Müdriyyəti tərəfindən başlanılıb.

Layihənin məqsədi Ceyranbatan su mənbəyindən Bakı və Abşeron ərazisinin dayanıqlı və keyfiyyətli su ilə təmin etmək və trassa boyu qəsəbələrə suyun çatdırılmasıdır. Həmçinin layihənin icrası su təchizatında təzyiqin sabitləşdirilməsinə, əhali sağlamlığının qorunmasına, regionun iqtisadi inkişafına, su təchizatı yaxşılaşan ərazilərdə sənaye və xidmət sahələrinin inkişafına və təxminən 100 mindən çox əhalinin keyfiyyətli su ilə təminatına şərait yaradacaq.

Yeni magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi çərçivəsində hər birinin tutumu 10.000 kub metr olan 4 ədəd su anbarının tikintisi nəzərdə tutulub. Hazırda 2 anbarın tikintisi üzrə işlər yekunlaşdırılıb, digərlərində isə tikinti-quraşdırma işləri davam etdirilir. Magistral su kəməri üzrə isə tikinti işləri 47% tamamlanıb.

İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidmətinin mətbuat katibi Ceyhun Musaoğlu layihə barədə məlumat verərək diqqətə çatdırıb ki, ölkə əhalisinin keyfiyyətli içməli su ilə fasiləsiz təminatına nail olmaq məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, o cümlədən İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirilir. Bu baxımdan Bakı şəhəri və ətraf qəsəbələrin içməli su təminatının yaxşılaşdırılması üçün yeni infrastruktur layihələr icra olunur. Ceyranbatan-Abşeron-Balaxanı-Ramanı-Zirə-Pirallahı magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi müqaviləsi çərçivəsində Ceyranbatan Sutəmizləyici Qurğular Kompleksindən "Atyalı" su anbarına diametri 1600 millimetr polad boru ilə ümumi uzunluğu 10,4 kilometr olan magistral su kəmərinin və Balaxanı su anbarı kompleksində 4 ədəd su anbarının tikintisi nəzərdə tutulub.

İşlərin keyfiyyətlə yerinə yetirilməsi üçün texniki tələblərə uyğun olaraq boruların qaynaq edilmiş hissəsi ultrasəs aparatı vasitəsilə yoxlanılır və hər bir qaynaq tikişi üçün fərdi rəy verilir. Nəql olunacaq suyun keyfiyyət göstəricilərinin yüksək saxlanması və korroziyanın qarşısını almaq üçün kəmərlərin çəkilişində istifadə olunan borular daxildən xüsusi boya ilə örtüklənib.



Anbarlar haqqında məlumat verən Ceyhun Musaoğlu bildirib ki, Ceyranbatan-Abşeron-Balaxanı-Ramanı-Zirə-Pirallahı magistral su kəməri və həmin kəmər boyu yerləşən mərkəzi anbarın tikintisi layihəsi çərçivəsində işlərin artıq 50 faizi icra olunub. Çəkilən boruların üstü torpaqlanıb. Layihə çərçivəsində hazırda 2 su anbarının tikintisi üzrə funksionallıq təmin olunaraq istismara verilib. Digər anbarın isə son tamamlanma - tikinti-quraşdırma işləri davam etdirilir. Bundan başqa magistral su kəmərinin 47 faizlik hissəsində boru quraşdırma işləri yekunlaşıb və hazırda kəmərin qalan hissəsində qazıntı, qaynaq və boruların xəndəyə düzülməsi işləri həyata keçirilir.

Tədbirlər planına uyğun olaraq, ölkə əhalisinin keyfiyyətli içməli su ilə fasiləsiz təminatına nail olmaq məqsədilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi tərəfindən kompleks tədbirlər həyata keçirilir.

# "Azərbaycan korrupsiyaya qarşı mübarizədə qlobal mərkəzə çevrilir" - Heydər Məmmədov




***Azərbaycan Prokurorluğu beynəlxalq hüquqi əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində mühüm təşəbbüslərlə çıxış edir və bu sahədə atılan ardıcıl addımlar ölkəmizin beynəlxalq hüquq məkanında nüfuzunun daha da möhkəmlənməsinə xidmət edir.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Baş prokurorunun müavini, II dərəcəli dövlət ədliyyə müşaviri Heydər Məmmədovun rəsmi mətbuatda dərc olunmuş məqaləsində bildirilir. 2025-ci ilin 19-23 may tarixlərində Bakı şəhəri BMT-nin Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi - GlobE Network - çərçivəsində Altıncı Plenar İclasa və İdarəetmə Komitəsinin Onuncu Görüşünə ev sahibliyi edəcək.

Tədbirdə 92 ölkədən 120-dən çox dövlət qurumu - o cümlədən 21 prokurorluq, 53 müstəqil antikorrupsiya qurumu və 16 beynəlxalq təşkilatdan - ümumilikdə 300-dən artıq nümayəndənin fiziki, 60-dan artıq iştirakçının isə onlayn formatda iştirakı nəzərdə tutulur. Panel, sessiya və paralel tədbirlərdə 100-dən artıq çıxış planlaşdırılır.

Baş prokurorun müavini, sözügedən tədbirin Təşkilat Komitəsinin rəhbəri Heydər Məmmədov məqaləsində qeyd edir:

"GlobE Şəbəkəsinin Bakıda keçiriləcək 6-cı Plenar İclası təkcə Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisi deyil, eyni zamanda ölkəmizin korrupsiyaya qarşı mübarizədə qlobal konsensusa verdiyi töhfənin parlaq təzahürüdür. Azərbaycan bu mühüm tədbir vasitəsilə hüquqi sistemindəki islahatları, rəqəmsallaşma təşəbbüslərini və beynəlxalq əməkdaşlıq sahəsindəki uğurlarını bir daha nümayiş etdirmək imkanı qazanır."

Məqalədə həmçinin vurğulanır ki, tədbir çərçivəsində süni intellektin korrupsiyaya qarşı mübarizədə tətbiqi, aktivlərin müsadirəsi, bank hesablarının dondurulması, ictimai maarifləndirmə kimi aktual mövzularda plenar sessiyalar və paralel tədbirlər keçiriləcək, eyni zamanda ikitərəfli görüşlər və əməkdaşlıq memorandumlarının imzalanması da nəzərdə tutulur.

# Şanlı tariximizin qəhraman oğlu

***Cəlilabad rayonunun Söyüdlü kəndində boya-başa çatan Tural Arif oğlu Rəhimov ömrünü canından artıq sevdiyi Vətəni, bağlı olduğu xalqı üçün yaşadı.***




O, 30 il əsir düşən Qarabağımızın azadlığı uğrunda başlanan haqq savaşımıza birincilər cərgəsində getdi, yağıya qarşı igidliklə döyüşdü və 27 yaşında şəhidlik zirvəsinə ucaldı. Həyat yolu qısa olsa da, əsl qəhrəman məktəbi tək tarixə yazıldı. Turalın keçdiyi bu şərəfli yol həm də göstərir ki, Vətən sevgisi hər şeydən əzizdir, ona tapınıb yaşamaq milyonların qəlbində sənə əbədi yer edir. Canı bahasına qana susamış düşməni qanda boğub əlçatmaz, ünyetməz göylərə ucalan Tural kimi. Nəsibi əzəmətli, möhtəşəm şəhidlik zirvəsindən boylanmaq səadəti olan qəhrəman Vətən oğlu qərinələr keçəcək, gələcək nəsillər tərəfindən də böyük ehtiramla xatırlanacaq.

Vətənini, xalqının xoşbəxt gələcəyini düşünən dərin zəkaya, yüksək mədəni səviyyə malik yeniyetmə Tural orta məktəbdən sonra, 2010-ci ildə Lənkəran Dövlət Universitetinə daxil olub. Bütün zehnini, düşüncəsini işə salmaqla yaxşı oxuyub, "Kimya-biologiya" ixtisası üzrə ali təhsil alıb. Qaldı ki, müqəddəs peşə bildiyi müəllim işləməyi bir qədər arxaya verib, yağıdan qisas almaq məqsədilə ordu sıralarına gedib və əsgərliyi cəbhə bölgəsinə düşüb. Tural bundan qürur hissi keçirdib, doğma Azərbaycanı göz-bəbəyi tək qoruyub. Qeyrətli, mərd, vətənpərvər gəncə hərbi hissədə hamı hörmət bəsləyib, onun dağ vüqarına, əyilməz qüruruna heyran kəsilib. Tural xidməti alnıaçıq başa vursa da, Vətənin çətin günündə ona dayaq durmaq üçün yenidən Azərbaycan Ordusunun sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. Leytenant rütbəsində yağıdan qisas alacağı məqama hazırlaşıb. 2016-cı il aprelin 1-də məzuniyyətə göndərilsə də, 2-5 apreldə baş verən Aprel döyüşlərinin başlaması ilə hərbi hissəyə geri dönüb, savaş meydanında yağının kabusuna çevrilib. Bu ağır müharibədə çoxlu sayda erməni dığasını məhv edib, nəticədə azad olunan Vətən torpağında ilk qələbə bayrağımız dalğalanıb.

Vətənə sonsuz sevgi ilə xidmət edən leytenant Tural Rəhimov İkinci Qarabağ müharibəsində döyüşə girən andan böyük fədakarlıq göstərib. Ürəyində aşıb-daşan qisas hissi Turalı yalnız qələbəyə doğru aparıb. Hər dəfə döyüşə atılanda erməni dığaları onun qarşısında tab gətirə bilməyib, silah-sursatını qoyub qaçmağa üz tuturlar. Qəhrəman Vətən oğlu sözün əsl mənasında sarsıdıcı zərbələri ilə yağıya od qoyub. Ən qaynar nöqtələrdə vuruşub, həmişə də zəfər qazanıb. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə göstərdiyi hünəri dillərdə dastana dönüb. Oktyabrın 22-də müharibə meydanında yağı gülləsinə sinə verib Vətən eşqli qəlbi əbədi olaraq dayanıb. Şəhidliyi millətinə, xalqına şərəf gətirən Tural Rəhimov dövlət tərəfindən "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə", Cəbrayılın, Qubadlının azadlığı uğrunda medallarına və III dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb.

Bəli, Tural Rəhimov kimi qeyrətli Vətən övladların qan bahasına qalib xalq olaraq bütün dünyada tanındıq.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Goranboy rayonu üzrə nəqliyyat sektoruna dair göstəricilər




***2025-ci ilin yanvar-mart aylarında nəqliyyat sektorunda avtomobil nəqliyyatı ilə sərnişin daşınmasından əldə olunan gəlir 861,2 min manat, yük daşınmasında isə 66,9 min manat təşkil etmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə sərnişin daşınmasından əldə olunan gəlir 2,9 faiz, yük daşınmasında isə 2,9 faiz çox olmuşdur.***

Ümumilikdə 2025-ci ilin yanvar-mart ayları üzrə nəqliyyat və anbar təsərrüfatında ümumi məhsul buraxılışının dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 21,2 faiz azalaraq 1022,1 min manat təşkil etmişdir. 2025-ci ilin yanvar-mart aylarında nəqliyyat sektorunda avtomobil nəqliyyatı ilə 221 min ton yük, 2931 min sərnişin daşınmışdır. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə yük daşınmasında 4,7 faiz, sərnişin daşınmasında isə 3,8 faiz artım müşahidə olunmuşdur.

***Cədvəl 1***

**Nəqliyyat sektorunun əsas göstəriciləri**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-mart aylarında | 2024-cü ilin yanvar-mart aylarında | 2024-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| Sərnişin daşınmasından əldə olunan gəlir (min manat) | 861,2 | 837,1 | 102,9 |
| Yük daşınmasından əldə olunan gəlir (min manat) | 66,9 | 65,0 | 102,9 |
| Yük daşınması, min ton | 221 | 211 | 104,7 |
| Sərnişin daşınması, min sərnişin | 2931 | 2825 | 103,8 |

***Goranboy Rayon Statistika İdarəsi***

# 2025-ci ilin yanvar-mart aylarında Qazax rayonunun sosial-iqtisadi göstəriciləri




***2025-ci ilin yanvar-mart aylarında Qazax rayonu üzrə iqtisadiyyatın əsas sahələrində ümumi məhsul buraxılışı 94 milyon 739,6 min manat təşkil etmiş və əvvəlki ilin yanvar-mart aylarına nisbətən 4,6 faiz artmışdır.***

Məhsul buraxılışının həcmi 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə sənaye sahəsində 4,9 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində 2,3 faiz, tikinti sahəsində 62,0 faiz, ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində 4,5 faiz artmış, nəqliyyat və anbar təsərrüfatı sahəsində 3,8 faiz, informasiya və rabitə sahəsində 69,2 faiz azalmışdır. Məhsul və xidmətlərin 90,4 faizi iqtisadiyyatın qeyri-dövlət sektoruna aid olmuşdur. Əhalinin hər nəfərinə düşən ümumi məhsul və xidmətlər 982,1 manat təşkil etmişdir.

2025-ci ilin yanvar-mart aylarında faktiki qiymətlərlə 47 milyon 206,3 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Heyvandarlıq sahəsində 1310,2 ton ət (diri çəkidə), 7441,3 ton süd, 2720,0 min ədəd yumurta istehsal edilmişdir.

2025-ci ilin yanvar-mart aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 1 milyon 206,4 min manat vəsait yönəldilmişdir.

Pərakəndə ticarət şəbəkələrindən əhaliyə 79 milyon 207,2 min manatlıq məhsul satılmış, xidmət subyektləri tərəfindən 12 milyon 350,0 min manatlıq iaşə və digər ödənişli xidmətlər göstərilmişdir. 2024-cü ilin yanvar-mart ayları ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 4,5 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 8,0 faiz artmışdır.

01 aprel 2025-ci il tarixinə rayon əhalisinin sayı 96523 nəfər olmuşdur. Rüb ərzində 229 doğulan körpə, 157 ölüm halı, 107 nikah, 44 boşanma qeydə alınmışdır.

2025-ci ilin 1-ci rübündə rayon üzrə orta aylıq nominal əməkhaqqı 762,0 manat təşkil etmişdir.

***Qazax RSİ-nin rəisi D.Xəlilova***

18_27 IYUI-QARA.qxd 5/15/2025 11:57 PM Page 15



# Putin onun vəzifəsini dəyişdi



***Rusiya prezidenti Vladimir Putin Rusiya Quru Qoşunlarının baş komandanı Oleq Salyukovu vəzifəsindən azad edib.***

"Unikal" xəbər verir ki, Putinin digər sərəncamı ilə Salyukov Rusiya Təhlükəsizlik Şurası katibinin müavini təyin edilib.

"Oleq Leonidoviç Salyukov Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini təyin edilsin, o, hazırkı vəzifəsindən azad edilsin", - hüquqi sənəddə deyilir.

Salyukov 2014-cü ildən Quru Qoşunlarının baş komandanıdır. Bütün bu illər ərzində o, 2025-ci il mayın 9-da baş tutan Qələbə paradları da daxil olmaqla, Moskvanın Qızıl Meydanında keçirilən Qələbə Paradlarına komandanlıq edib.

# "İstanbula gedə bilərəm" - Tramp

***ABŞ prezidenti Donald Tramp Rusiya-Ukrayna münaqişəsinin həlli üzrə danışıqlarda mümkün iştirak üçün mayın 16-da İstanbula gəlməyə hazır olduğunu bildirib.***

"Unikal" xəbər verir ki, Ağ Ev rəhbərinin sözlərini TASS sitat gətirib.

# Qriqoryan İrana gedəcək

***Ermənistan Respublikasının Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan İran İslam Respublikasının paytaxtı Tehrana işgüzar səfərə gedəcək.***

"Unikal" xəbər verir ki, bu barədə erməni KİV məlumat yayıb. Məlumata görə, Qriqoryan "Tehran Dialoq Forumu 2025"də iştirak etmək üçün mayın 16-da İranda olacaq.

Təhlükəsizlik Şurasının ofisindən bildirilib ki, səfər zamanı işgüzar görüşlər də nəzərdə tutulub.

***Ağarza Elçinoğlu***

# "Avropa Ukraynada sülh istəmir" - Lavrov



***Rusiyanın xarici işlər naziri Sergey Lavrov bəyan edib ki, Avropa Ukraynada sülh istəmir.***

"Unikal" xəbər verir ki, XİN rəhbərinin sözlərinə görə, buna dair sübutlar var. "Nə Berlinin, nə Parisin, nə Brüsselin, nə də xüsusilə Londonun həqiqətən Ukraynada heç bir sülh istəmədiyinə dair çoxlu sübutlar var", - Lavrov ifadə edib.

***Gülayə Mecid***

# "53 nəfər "Georgi lenti" taxdığına görə cərimələnib" - Aleksey Petroviç

***Moldovada mayın 9-da "Georgi lenti" taxdıqlarına görə 53 nəfər cərimələnib.***

"Unikal" Rusiya KİV-ə istinadən xəbər verir ki, bu barədə "Pobeda"nın Koordinasiya Komitəsinin rəhbəri Aleksey Petroviç bildirib. "53 nəfər Qələbə Günündə "Müqəddəs Georgi lenti" taxdıqlarına görə cərimələnib", - deyə o qeyd edib.

***Ağarza Elçinoğlu***

# "Biz heç bir tirana boyun əyməyəcəyik" - Pezeşkian

***İran Prezidenti Məsud Pezeşkian ABŞ lideri Donald Trampın İranın iğtişaşların səbəbi və təhlükə mənbəyi olması ilə bağlı açıqlamalarını rədd edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə Kirmanşah əyalətində çıxışı zamanı danışıb. İsrailin Qəzzaya hücumlarına toxunan Pezeşkian, "Müharibəyə biz başladıq, yoxsa hücumçu ölkəyə bomba və raketlər verən, Siz?! 47 ildir bu dövləti və milləti diz çökdürməyə çalışdılar, amma bacarmadılar. Təhdidlər qarşısında geri addım atacağımızı düşünmək axmaq bir fikirdir. Biz heç bir tirana boyun əyməyəcəyik", - deyib.

***Gülayə Mecid***

# Rusiya və Ukrayna nümayəndələri İstanbulda görüşə bilmədilər

***İstanbulda Rusiya və Ukrayna nümayəndə heyətləri arasında mayın 15-də baş tutması planlaşdırılan danışıqlar mayın 16-da başlayacaq.***

"Unikal" xəbər verir ki, bu barədə TASS mənbələrə istinadən məlumat yayıb.



Məlumata görə, tərəflər mayın 15-də danışıqların başlama vaxtı ilə bağlı razılığa gələ bilməyiblər.

Bu barədə hər iki tərəf mətbuata müvafiq açıqlamalar verib.

Rusiya nümayəndə heyətinin rəhbəri, Rusiya prezidentinin köməkçisi Vladimir Medinski bildirib ki, Rusiya nümayəndə heyəti danışıqlar aparmaq üçün bütün lazımi səlahiyyətlərə malikdir:

"Rusiya nümayəndə heyətinin vəzifəsi uzunmüddətli sülhün bərqərar olması və münaqişənin səbəblərinin aradan qaldırılmasıdır. Rusiya nümayəndə heyəti konstruktiv əhval-ruhiyyə və münaqişənin həlli yollarını axtarır. Rusiyanın İstanbuldakı nümayəndə heyəti lazımi səlahiyyətlərə malikdir".

Qeyd edək ki, Rusiya tərəfinin Ukraynanı danışıqları gecikdirməsi barədə ittiham etməsi fonunda Türkiyə Prezidenti Rəcəp Tayyip Ərdoğanla Ukrayna Prezidenti Volodimir Zelenski arasında görüş keçirilib.

Ankarada keçirilən görüş təxminən 3 saat davam edib. Türkiyə və Ukrayna prezidentləri Ankarada görüş zamanı Rusiya-Ukrayna müharibəsinə son qoymaq səylərini müzakirə ediblər.

Türkiyə prezidenti hazırkı mərhələdə Ukrayna-Rusiya müharibəsinin gedişatı birbaşa danışıqlar yolu ilə həlli zəruri etdiyini bildirib. Ərdoğan danışıqlara başlamaq üçün tarixi fürsətdən istifadə edilməsinin vacibliyini və həm texniki, həm də liderlər səviyyəsində ola biləcək danışıqları güclü şəkildə dəstəklədiyini vurğulayıb. Türkiyə lideri, həmçinin, iki liderin görüşünə də ev sahibliyi etməyə hazır olduğunu əlavə edib.

Ukrayna Ukrayna Prezidenti Volodimir Zelenski isə öz növbəsində bildirib ki, Rusiya danışıqlarının saat məsələsi ilə bağlı sadəcə Ukraynaya deyil, bütün tərəflərə qarşı hörmətsizlik edib:

"İstanbulda baş tutacaq Rusiya və Ukrayna danışıqlarının saatı hələ də bəlli deyil".

Zelenski Ukrayna heyətinin mayın 15-16-da İstanbulda qalacağını da vurğulayıb.

O, görüşün mayın 16-da baş tuta biləcəyini əlavə edərək, hər kəsin Rusiya tərəfinin addımını gözlədiyini bildirib"

"Rusiya nümayəndə heyətinin səviyyəsini görəndən sonra anladıq ki, onlar ciddi danışıqlara hazır deyillər. Rusiya ilə danışıqlarda Baş Qərargah rəisi və təhlükəsizlik xidmətinin rəhbəri olmayacaq. Ukraynanın müdafiə naziri Rustem Umerov İstanbulda Rusiya ilə danışıqlarda iştirak edəcək. Ukrayna nümayəndə heyətinə o başçılıq edəcək.

Nümayəndə heyətimizin gündəmində atəşkəs olacaq, lakin Rusiya nümayəndə heyətinin bu əhval-ruhiyyədə olduğuna əmin deyilik. Danışıqlarda iştirak edənlər arasında biz əslində qərar qəbul edənləri görmürük. Mən hələ də düşünürəm ki, Rusiya bu görüşlərə ciddi yanaşmır, müharibəni dayandırmaq istəmir".

Türkiyənin xarici işlər naziri Hakan Fidan isə Antalyada NATO XİN rəhbərlərinin qeyri-formal görüşündən sonra brifinqdə deyib ki, Rusiya və Ukrayna prinsipcə atəşkəs fikri ilə razılaşıb.

Nazir qeyd edib ki, hər iki tərəfin atəşkəs üçün fərqli fikirləri var:

"Ukrayna tərəfi qeyd-şərtsiz atəşkəsin təminini istəyir, Rusiya tərəfinin də öz şərtləri var. Bunun müzakirəsi üçün tərəflər bir araya gəlməli, razılaşmadıqları məsələləri razılaşdırmalıdır. Bunun üçün ABŞ vasitəsilə başladılan Ukrayna-Rusiya müzakirələri müəyyən mərhələyə gəlib. Tərəflər artıq bir nöqtəyə gəlməyə çalışırlar. Bizim bu danışıqlara davam etməyimiz lazımdır. Məqsəd sülhə nail olmaqdırsa, hər iki tərəf müəyyən güzəştlər etməlidirlər. Vasitəçilərin üzərinə mühüm vəzifələr düşür. Bu məsələdə biz hər cür dəstəyi əvvəldən veririk və bundan sonra da verəcəyik".

# "Müharibə diplomatik yolla sona çatacaq" - Rubio

***"Rusiya ilə Ukrayna arasında münaqişə hərbi yolla həll edilə bilməz".***



"Unikal" xəbər verir ki, bunu ABŞ dövlət katibi Marko Rubio deyib. NATO xarici işlər nazirlərinin qeyri-rəsmi görüşü üçün Antalyada səfərdə olan Rubio, "Rusiya və Ukrayna arasında münaqişənin hərbi yolla həlli yoxdur. Bu müharibə hərbi yox, diplomatik yolla sona çatacaq" deyib. Rubio həmçinin qeyd edib ki, Amerika lideri Donald Tramp Ukrayna münaqişəsinin sülh yolu ilə həllinə gətirib çıxaracaq istənilən mexanizmlə bağlı konstruktiv dialoqa hazırdır.

***Gülayə Mecid***

# Zaxarova Azərbaycan komandolarının paradda iştirakından danışdı

***Azərbaycan Silahlı Qüvvələrinin Komando Briqadası Moskvada İkinci Dünya müharibəsinin başa çatmasının 80 illiyinə həsr olunmuş Qələbə paradında möhtəşəm iştirakı ilə hər kəsi sevindirib.***

"Unikal" xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqdə deyib. O, Bakıdan olan parad bölməsinin bu günü hər kəslə bölüşmək, özünün möhtəşəm iştirakı ilə onu tamamlamaq və faşizmə qarşı döyüşən veteranların, o cümlədən azərbaycanlıların xatirəsini ehtiramla yad etmək üçün Moskvaya gəldiyini vurğulayıb.

Diplomat qeyd edib: "Biz həqiqətən də şadıq ki, bu gün Azərbaycan vətəndaşları, Rusiyada və dünyanın digər ölkələrində yaşayan azərbaycanlılarla əcdadlarımızın tarixi xatirəsinə və şücaətinə hörmətimizdə həmrəyik".



İkitərəfli əlaqələrdən danışan RF Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi xatırladıb ki, Bakı ilə qarşılıqlı fəaliyyətin əsasını 2022-ci ilin fevralında imzalanmış Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti haqqında Bəyannamə təşkil edir: "Öz tərəfimizdən ikitərəfli münasibətlər üzrə bu əsas sənədin bütün potensialının ardıcıl olaraq aşkara çıxarılmasına, qarşıya çıxan bütün məsələlərin birlikdə, yüksək səviyyədə, qarşılıqlı hörmət əsasında həllinə sadiqik. Hökumətlər və xarici siyasət qurumları arasında bir sıra yüksəksəviyyəli təmaslarımız mövcuddur".

# Şəhid Anar Novruzovun xatirəsinə idman yarışı keçirilib

***Vətən müharibəsinin şəhidi Anar Novruzovun adı hər dəfə çəkiləndə bütün masallılar qürur duyur, onunla fəxr edirlər. Onun əziz xatirəsinə ehtiram əlaməti olaraq müxtəlif tədbirlərlə bərabər idman yarışları da təşkil edilir.***



Növbəti dəfə isə Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin təşkilatçılığı sayəsində ölümsüzlüyə qovuşan qəhrəman şəhid Anar Novruzovun xatirəsinə həsr olunmuş yeniyetmə və gənclər arasında güllə atıcılığı üzrə Masallı rayon turniri keçirilib.

Masallı Gənclər evi SXM-də təşkil edilən turnirdə 12 oğlan və 15 qız olmaqla 27 nəfər öz nişan alma bacarığını göstərib.

Məlumat üçün bildirək ki, turnirin təşkilində əsas məqsəd Vətən uğrunda qəhrəmancasına şəhid olmuş Anar Novruzovun əziz xatirəsini yad etmək və onun qəhrəmanlığını gənc nəsillərə tanıtmaq, yeniyetmə və gənclər arasında güllə atıcılığı kimi xüsusi diqqət və dəqiqlik tələb edən idman növünə marağı artırmaq, onların fiziki hazırlıq səviyyəsini inkişaf etdirmək və bu sahədə istedadlı gəncləri aşkar etmək, həmçinin gənclərin hərbi-idman hazırlığının inkişafına dəstək vermək, eləcə onların gələcəkdə ölkənin müdafiə potensialının bir hissəsi kimi yetişməsidir.

Turnirdə qalib yerlər qazanan idmançılar Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin diplom və medalları ilə təltif edilib.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# "Bolonya" İtaliya Kubokunu qazandı

***Futbol üzrə İtaliya Kubokunun qalibi müəyyənləşib.***



"Unikal" xəbər verir ki, həlledici oyunda "Bolonya" və "Milan" komandaları üz-üzə gəlib. Roma Olimpiya Stadionunda təşkil olunan qarşılaşma "Bolonya"nın 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Beləliklə, komanda tarixində üçüncü dəfə İtaliya Kubokunun qalibi olub.

# Osimhendən tarixi rekord



***"Qalatasaray"ın hücumçusu Viktor Osimhen Türkiyə futbolu tarixinin rekorduna imza atıb.***

QOL.az xəbər verir ki, o, buna ölkə kubokunun finalında "Trabzonspor"la matçda nail olub. Nigeriyalı forvard görüşdə dubl edib. Nəticədə Osimhen cari mövsüm "Qalatasaray"ın heyətində vurduğu qolların sayını 35-ə çatdırıb.

Bununla da o, Türkiyə futbolu tarixində 1 mövsümdə ən çox qol vuran legioner adını qazanıb. Əvvəlki rekord isə "Qalatasaray"ın sabiq futbolçusu Mario Jardelə məxsus idi - 34 qol.

Qeyd edək ki, müqavilə ilə "Napoli"yə məxsus olan Osimhen ötən ilin yayından icarə əsasında İstanbul təmsilçisində oynayır.

# "Qarabağ"a təqdim olunacaq çempionluq kuboku və medallar Türkiyədə hazırlanıb

***Misli Premyer Liqasının 2024/2025 mövsümünün qalibi olan "Qarabağ"a təqdim ediləcək kubok və medallar Türkiyədə hazırlanıb.***

Bu barədə "Unikal"a Peşəkar Futbol Liqasının (PFL) Media və marketinq direktoru Sənan Abdullayev məlumat verib.

O, mayın 18-də keçiriləcək XXXV turun "Qarabağ" - "Kəpəz" matçından sonra təltifetmə mərasiminin baş tutacağını xatırladıb:

"Qarşılaşmadan təxminən 40 dəqiqə sonra tədbir başlayacaq. Bombardir üçün mükafat bu dəfə verilməyəcək. Səbəb çempionatın davam etməsidir. Bununla bağlı planlama olacaq və mükafatı futbolçuya həmin vaxt təqdim edəcəyik. Medallar və kubok Türkiyədə hazırlanıb. Kubokun üzərində mövsümlə bağlı qeydlər aparılıb".



Qeyd edək ki, PFL ötən mövsümdə də kubok və medalları qardaş ölkədə hazırlatdırmışdı. Həmin vaxt da Ağdam klubu Azərbaycan çempionu olub.

# Kloze Mahirin son durumunu açıqladı

***Azərbaycan millisiin hücumçusu Mahir Emrelinin əzələsindəki problem aradan qalxmaqdadır.***



QOL.az xəbər verir ki, "Nürnberq"in oyunçusu son günlər fərqdi məşqlər edirdi. Bu səbəbdən onun 34-cü turunun mayın 18-si "Ayntraxt"a (Braunşveyq) qarşı səfər matçında iştirak edib-etməyəcəyi sual altındadı idi.

Lakin Almaniya mediasının yazdığına görə, Emrelinin vəziyyəti yaxşılaşmaqdadır.

"Nürnberq"in baş məşqçisi Miroslav Kloze dünən keçirdiyi mətbuat konfransında bildirib ki, əgər son anda futbolçunun ayağında yenidən problem yaranmasa, o, qarşıdakı görüşdə iştirak edəcək.

Qeyd edək ki, "Ayntraxt"la oyun "Nürnberq"in bu mövsümdəki son matçı olacaq. Bundan sonra M.Emreli həmin klubu tərk edəcək.

# 7 ölkə Azərbaycandakı MDB Oyunlarında iştirakını təsdiqləyib

***Yeddi ölkə, o cümlədən ev sahibi Azərbaycan 2025-ci ildə keçiriləcək III MDB Oyunlarında iştirakını təsdiqləyib.***

Məlumatı Bakı Şəhər Halqası yayıb. Hazırda oyunlarda iştirak edəcək nümayəndə heyətlərinin qeydiyyatı davam edir. Bu günə olan məlumata əsasən, MDB məkanını təmsil edən 7 ölkədən 23 idman növü üzrə ümumilikdə 1659 idmançı qeydiyyatdan keçib. Qeydiyyatdan keçmiş nümayəndələrin ümumi sayı isə 2385 nəfərdir.

Komanda idman növləri üzrə - futbol (U-16), basketbol 3x3 və voleybol yarışlarında altı ölkə iştirakını təsdiqləyib. Güləş, boks, cüdo və taekvondo kimi fərdi növlərdə isə 100-dən çox idmançı qeydiyyatdan keçib.

Qeyd edək ki, ilkin mərhələdə yalnız MDB ölkələrinin nümayəndə heyətləri qeydiyyatdan keçirilir.İkinci mərhələdə isə qeydiyyat MDB-yə üzv olmayan, Oyunlarda xüsusi dəvət əsasında iştirak edən ölkələrin nümayəndə heyətləri üçün aparılır. Ümumilikdə, Oyunlarda dünyanın 23 ölkəsindən 5500-ə yaxın iştirakçının qatılması gözlənilir.

III MDB Oyunları 2025-ci il 28 sentyabr - 8 oktyabr tarixlərində Azərbaycanın yeddi şəhərində - Gəncə, Yevlax, Mingəçevir, Qəbələ, Şəki, Göygöl və Xankəndidə keçiriləcək.

III MDB Oyunları gənc idmançılar arasında dostluğun, birliyin və idman ruhunun təcəssümünə çevriləcək və regionun ən mötəbər idman tədbirlərindən biri olacaq.

# "Real Madrid" İspaniya millisinin futbolçusu ilə razılaşdı

***İspaniyanın "Real Madrid" komandası yeni futbolçu ilə anlaşıb.***

"Unikal" xəbər verir ki, bu barədə tanınmış insayder Nikolo Şira məlumat yayıb.

Madrid təmsilçisi İngiltərənin "Bornmut" komandasının müdafiəçisi Din Heysen ilə razılığa gəlib. Bu transfer üçün qarşı tərəfə 60 milyon avro ödəniləcək. İspaniya millisinin üzvü yeni klubu ilə 2031-ci ilədək müqavilə imzalayacaq.

# "Nottingem"in futbolçusu komadan ayıldı



***"Nottingem"in hücumçusu Tayvo Avoniyi komadan çıxıb.***

QOL.az "Daily Mail"ə istinadən xəbər verir ki, oyun zamanı qarın nahiyəsindən aldığı zədəyə görə vəziyyəti pisləşən nigeriyalı futbolçu əməliyyatdan sonra komadan ayılıb.

Tayvo mayın 11-də Premyer Liqanın 36-cı turunun "Lester"lə oyununda (2:2) qapı dirəyinə dəyərək zədələnib. Bağırsağı partlayan hücumçu iki mərhələdə cərrahiyyə əməliyyatı keçirib. Mənbənin məlumatına görə, hücumçu hazırda ailəsi ilə birlikdə xəstəxanadadır və həkimlərin nəzarəti altındadır. O, bərpaedici prosedurları davam etdirir və vəziyyəti yaxşılaşır. Həyatına heç bir təhlükə yoxdur.

Qeyd edək ki, Avoniyi bu mövsüm bütün yarışlarda 32 matçda 2 qol vurub.